Günəş Şərqdən doğur!

№ 19 (5300), 2021-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 2 fevral 2021-ci il (çərşənbə axşamı)





## Koronavirusa yoluxma sayı ikirəqəmliyə düşdü

Xəstəlikdən sağalma sayı da yoluxanları iki dəfə üstələyir

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 77 yeni yoluxma faktı qeydə alınıb, 160 nəfər müalicə olunaraq sağalıb.

(Səh.9)

## Bayrama döndü

Məktəblərin açılması valideynləri də sevindirib, şagirdləri də



Dünəndən məktəbə hazırlıq, məktəbəqədər təhsil qrupları və ibtidai təhsil səviyyəsi üzrə tədris sanitar-gigiyenik tələblər nəzərə alınmaqla ənənəvi formada fəaliyyətə başlayıb.

(Səh.14)

## Günün içindən...



### Hulusi Akar generala tapşırıqlarını verib

Türkiyənin milli müdafiə naziri Hulusi Akarın rəhbərliyində, Silahlı Qüvvələrin Baş Qərargah rəisi Yaşar Gülər və digərlərinin iştirakı ilə videokonfrans formatında iclas keçirilib.

(səh.2)

### Türkiyə türk millətinin əleyhinə olan oyunları pozmağı bacarıb



Çavuşoğlu: "Biz Qafqazda diplomatik həll yolu istəyəndə, buna razı olmayanlar indi siyasi çözüm istəyirlər"

(səh.5)

# Məmurlar Şuşanı zəbt etmək istəyirlər

## Prezident vəzifəlilərə sərt xəbərdarlıq etdi



**"Mən Şuşanı mədəniyyət paytaxtı elan etmişəm, məmurlar paytaxtı elan etməmişəm"**

"Yeni tikilmiş xəstəxana bizim səhiyyə sahəsindəki fəaliyyətimizi əks etdirir". Bunu Prezident İlham Əliyev Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni inşa edilən binasının açılışı zamanı Azərbaycan Televiziyasına müsahibəsində deyib.

(səh.2)

## Qarabağda daha terror hərəkətlərinin qarşısı alınacaq

Türk hərbçilərinin də regionda rəsmi mövcudluğu qaranlıq məqamlara aydınlıq gətirəcək

(səh.9)



## Qəfil bahalaşma...

Millət vəkilləri də etiraz etdilər

(səh.6)

## Səfirlərimiz hədəfdədir

Xaricdə erməni terroru yenidən canlanır

(səh.5)

## Sürücülük vəsiqəsinin daşınmasına ehtiyac qalmadı

Avtoxuliqanlıq xətasının törədilmə üsulları dəqiq müəyyən edilib

(səh.6)

## Müəmmalı qətlin detalları aydınlaşır

Nərminin atası daha susmayacaq, danışacaq

(səh.9)



## "Minamyotu az qala əsgərlərin sayı qədər atırdılar"

Emin Piri: "Ordan sağ çıxandan sonra dedim ki, daha ölsək də olar, qalsaq da"

(səh.8)

## Şuşada gözlərini və ayağını itirdi



Qazimiz qazandıqlarımızın qarşılığında bunu çox cüzi itki sayır

(səh.9)




## Füzuli aeroportunda uçuş-enmə zolağının inşasının bu il başa çatması gözlənilir

**Füzulidə inşa olunan aeroportun uçuş-enmə zolağında tikintinin bu il yekunlaşacağı gözlənilir.**

Trend-in Füzulidə olan əməkdaşının verdiyi məlumata görə, bunu jurnalistlərə açıqlamasında tikintini həyata keçirən AZVİRT şirkətinin baş mühəndisi Cəfərağa Şiriyev deyib.

O bildirib ki, qarşıda duran başlıca vəzifələrdən biri uçuş-enmə zolağının inşasıdır: "Builki proqramda qarşıya qoyulan məqsədlərdən də biri budur. Bu il onun təhvil veriləcəyi gözlənilir"

## "YAŞAT" Fonduna toplanan vəsait 28 milyon manatı ötüb




**Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu olan "YAŞAT" Fonduna toplanan vəsait 28 milyon manatı ötüb.**

Fonda toplanan vəsait 28 047 364.62 manatdır. Həmin vəsaitdən 16 434 136.55 manatı fiziki şəxslər, 11 613 228.07 manatı isə hüquqi şəxslər tərəfindən ödənilib.

Fonda daxil olan vəsaitin 2 403 868.12 manatı xərclənib. Vəsaitin qalığı isə 25 643 496.5 manatdır.

*Qeyd edək ki, "YAŞAT Fondu" Prezident İlham Əliyevin dekabrın 8-də imzaladığı fərman əsasında yaradılıb.*

## Hulusi Akar generala tapşırıqlarını verib

**Türkiyənin milli müdafiə naziri Hulusi Akarın rəhbərliyində, Silahlı Qüvvələrin Baş Qərargah rəisi Yaşar Gülər və digərlərinin iştirakı ilə videokonfrans formatında iclas keçirilib.**

APA-nın Türkiyə Milli Müdafiə Nazirliyinə istinadən verdiyi xəbərə görə, iclasa 30 yanvarda fəaliyyətə başlayan Dağlıq Qarabağda atəşkəsə nəzarət üzrə Türkiyə-Rusiya Birgə Mərkəzində xidmət edən türkiyəli general da qatılıb.

Vəziyyətlə bağlı təqdimatla çıxış edən generala nazir Hulusi Akar müxtəlif tapşırıqlar verib.

## Çətin təlimlər başladı

### Azərbaycan və türk əsgəri yenə çiyin-çiyinədir



**Qars şəhərində keçirilən "Qış təlimi-2021" birgə təlimlərinin aktiv fazası başlayıb.**

Müdafiə Nazirliyi bildirir ki, təlimin senarisinə uyğun olaraq minaatan bölmələri aşkar olunan müxtəlif hədəfləri məhv ediblər.

Təlimlər fevral ayının 1-dən 12-dək keçiriləcək.

*Qeyd edək ki, "Qış təlimi-2021"də Türkiyə Silahlı Qüvvələrinin bölmələri ilə yanaşı, Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları da iştirak edirlər.*

# Məmurlar Şuşanı zəbt etmək istəyirlər

## Prezident vəzifəlilərə sərt xəbərdarlıq etdi



## "Mən Şuşanı mədəniyyət paytaxtı elan etmişəm, məmurlar paytaxtı elan etməmişəm"

"Yeni tikilmiş xəstəxana bizim səhiyyə sahəsindəki fəaliyyətimizi əks etdirir". Bunu Prezident İlham Əliyev Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni inşa edilən binasının açılışı zamanı Azərbaycan Televiziyasına müsahibəsində deyib. Dövlət başçısı bildirib ki, son illərdə bir çox xəstəxanalar tikilib və onların da müəyyən standartları var, həm memarlıq baxımından, həm də avadanlıqlarla təchizat baxımından:

"Ona görə əminəm ki, bu xəstəxanada vətəndaşlara keyfiyyətli tibbi xidmət göstəriləcək. Çünki bütün müasir avadanlıqlar burada quraşdırılıb. Burada 200-dən çox həkim və bütövlükdə 600-dən artıq tibb işçisi çalışacaq və təbii ki, onların da iş şəraiti müsbətə doğru dəyişir. Əminəm ki, burada göstəriləcək tibbi xidmət vətəndaşların sağlamlığını təmin edəcək, bərpa edəcək. Xəstəxananın inşası bir daha onu göstərir ki, bu sahədəki fəaliyyətimiz ardıcıl şəkildə davam etdirilir və Abşeron rayonunda da müasir xəstəxana artıq fəaliyyət göstərir. Bunun üstünlüyü, eyni zamanda, ondadır ki, bu vaxta qədər müxtəlif tibb müəssisələri fərqli-fərqli yerlərdə məskunlaşmışdı, amma indi burada artıq həm xəstəxana, poliklinika, uşaq poliklinikası, doğum şöbəsi, təcili tibbi yardım şöbəsi - bütün şöbələr bir yerdə fəaliyyət göstərəcək. Əlbəttə ki, bu, insanların rahatlığı üçün də çox önəmlidir" - deyə dövlət başçısı qeyd edib.

**"İndi oraya elə bil ki, hücum gözlənilir, zəbtetmə hücumu"**

"Mən Şuşanı mədəniyyət paytaxtı elan etmişəm, məmurlar paytaxtı elan etməmişəm! Ona görə hər kəs otursun yerində, öz işi ilə məşğul olsun, məni də əsəbləşdirməsin. Şuşanın ərazisinin ölçüsü 300 hektardır. Mən qoymamışam ki, bir dənə daş daş üstə qoyulsun. Çünki birinci təhlil aparmalıyıq. Ondan sonra o tarixi binaları bərpa etməliyik, necə bərpa etməliyik, bunu mən də deyə bilmərəm, mütəxəssislər deməlidir, biz indi cəlb etmişik".

Bu işlərlə indi artıq müxtəlif yerli və xarici şirkətlərin məşğul olduğunu diqqətə çatdıran dövlət başçısı deyib: "Şuşada biz ancaq və ancaq tarixi binaları bərpa etməliyik, mən belə hesab edirəm. Ondan sonra "xruşşovkalar"la bağlı, - indi qabaqlamaq istəmirəm, - mənim fikrim var ki, onların bir çoxu oradan yığışdırılmalıdır. Onların yerində yəqin ki, müasir 4-5 mərtəbəli yaşayış binaları tikilməlidir. Ancaq bununla bağlı mən sadəcə olaraq öz fikirlərimi bölüşürəm. Amma necə olacaq, onu mütəxəssislər, memarlar, tarixçilər, şuşalılar özləri deyəcəklər ki, bu şəhəri necə görmək istəyirlər, çünki bu, onların şəhəridir. Yoxsa, bütün bunlar, bu işlər kənarda qala-qala biri durur ki, mən filial açıram, biri deyir ki, mən zastava açıram, biri deyir ki, mən fövqəladə hallar açıram. Vallah, adam söz tapmır. Mən söz tapmışam, onlara elə söz demişəm ki, onlar o sözü unutmayacaqlar. Azərbaycan vətəndaşlarına da deyirəm, bərpa ilə bağlı görüləcək işlərdə mütləq ictimai nəzarət olmalıdır. Olmasa bilin ki, yenə də eybəcər binalar tikiləcək, torpaqlar zəbt ediləcək, hərə özü üçün bir obyekt tikəcək".

**Prezident qeyd edib ki, müvəqqəti idarəetmə strukturu yaradıb.** "Nəyə görə? Çünki mən görürəm, bilirəm, artıq gözlər tikilib oraya. İndi oraya elə bil ki, hücum gözlənilir, zəbtetmə hücumu. O torpaq mənim, o torpaq sənin, oranı mənə, buranı sənə. Amma mən bunların hamısını cəzalandıracağam, hamısını, özü də necə lazımdır. Otursun hərə öz yerində öz işi ilə məşğul olsun. Bütün torpaqlar planlı şəkildə bərpa ediləcək. Orada insanlar üçün şərait yaradılacaq, elə şərait ki, dünya üçün nümunə olacaq. Heç bir qanunsuz hərəkət ola bilməz. Heç bir torpaq zəbt oluna bilməz. Hər şey planlı və əsaslı şəkildə olmalıdır. Mən əminəm ki, biz buna nail olacağıq. Biz hamımız istəyirik ki, dağıdılmış şəhərlər tezliklə bərpa edilsin, amma, eyni zamanda, elə olsun ki, bu, oraya qayıdacaq insanların rahatlığını təmin etsin və müasir, güclü Azərbaycanın gücünü bütün dünyaya göstərsin", - deyə dövlət başçısı vurğulayıb.

**"Mənim kimi indi Azərbaycan xalqı da güləcək"**

**Dövlət başçısı bildirib ki, Şuşa şəhəri mədəniyyət paytaxtı elan edilib:** "Şuşa nəinki Azərbaycanın, bölgənin, bəlkə də dünyanın mədəniyyət paytaxtlarından birinə çevriləcəkdir. Şuşada çox zəngin mədəni həyat olmalıdır. Şuşada yaşayacaq bizim soydaşlarımız da, onlar bütün işlər görüləndən sonra oraya qayıtmalıdırlar. Şuşa demək olar ki dağılıb, bütün binalar dağılıb. Bir keçmiş raykom binası qalıb, harada ki, mənfur xunta özü üçün yuva salmışdır, bir də xunta başçısının villası və bir-iki də cinayətkar, rüşvətxor erməni məmurunun villası. Orada başqa bina yoxdur. Bir də "xruşşovkalar", hansılar ki, çoxdan öz ömrünü bitiriblər, orada da 2 min erməni yaşayırdı. İndi Mərkəzi Bank insanlara xidmət göstərib ki, orada filial açsın? Kimin üçün filial açacaq? Özü üçün ki, gedib orada otursun, yaxud da ki, gedəndə bunun bir iqamətgahı olsun, şəraiti olsun, oraya pullar xərclənsin və insanların buna hansı xeyri dəyəcək? Heç bir. Təkcə bu, deyil. Digər qurumlar da indi mənə müraciət ediblər. Onların hər halda ağlı çatıb mənə müraciət etməyə və mən onlara dedim ki, gedin oturun yerinizdə. Onları da mən deyə bilərəm, sadalaya bilərəm, qoy Azərbaycan vətəndaşları bilsinlər. Azəravtoyol, onun rəhbəri mənə müraciət edib ki, icazə verin, Şuşada Azərbaycan "Azəravtoyol" qurumunun regional mərkəzini açaq. Nə üçün? Yol çəkmək lazımdır, get, yol çək. Özü öz hesabına heç kim yol çəkmir, dövlət büdcə ayırır. Şuşada "Azəravtoyol"un regional mərkəzinin nə işi var? AZAL rəhbəri mənə müraciət edib ki, qurumun binasını Şuşada yaratmaq istəyirlər. Bu, prinsipcə absurddur. Ona da lazımi sözləri demişəm ki, get otur yerində. Ondan sonra, Dövlət Gömrük Komitəsi Şuşada Qarabağ Regional Mərkəzinin yaradılması ilə bağlı müraciət edib. Şuşada sərhəd var ki, gömrüyün regional mərkəzi olsun? Bilirsiniz, belə ziyanlı fikirlər bu adamların beyninə gəlir və onlar da bunu tələffüz edirlər. Siyahı davam edir hələ. Fövqəladə Hallar Nazirliyi, mənə nazir müraciət edib. Dövlət Sərhəd Xidməti. Bu təklifi indi desəm yəqin ki, mənim kimi indi Azərbaycan xalqı da güləcək. Mənə zəng edib deyir xidmətin rəisi ki, icazə verin biz sərhəd xidmətini Şuşa zastavasında yaradaq. Dedim ki, a kişi, Şuşada sərhəd var? Mən bəzən bu şeyləri demirəm vətəndaşlara ki, o vətəndaşları iyrəndirməyim, bağışlayın sözümə görə, ifadəmə görə. Amma mənim də artıq səbrim tükənir və deyirəm ki, vətəndaşlar da bilsinlər, bu məmurlar da bilsinlər", mən Şuşanı mədəniyyət paytaxtı elan etmişəm, məmurlar paytaxtı elan etməmişəm.

**İsmayıl**

# Gücümüzə güc qatırıq

## Türkiyə ilə ortaq media platformasının yaradılması informasiya savaşında ən böyük silahımız olacaq



**Parlamentin iclasında ”Azərbaycanla Türkiyə arasında media sahəsində strateji əməkdaşlıq haqqında” qanun layihəsi müzakirəyə çıxarılaraq bir oxunuşda qəbul edilib. Vurğulanıb ki, birgə media platformasının məqsədi Azərbaycan-Türkiyə ikitərəfli əlaqələrini və əməkdaşlığını media və kommunikasiya sahəsində gücləndirməklə strateji media ortaqlığının yaradılmasıdır.**

Platforma çərçivəsində media sahəsində bilik, təcrübə və mənbələrin paylaşılması, beynəlxalq arenada rast gələnən dezinformasiyaya qarşı birgə mübarizə aparılması, televiziya və kino sahəsində ortaq işlərin həyata keçirilməsi və s. məqamlar nəzərdə tutulur. Deputatlar da hesab edirlər ki, ortaq media platforması iki ölkə arasında rabitə körpüsünün qurulmasına xidmət göstərəcək.

**“Ortaq media platforması yaradırıqsa, ortaq da dil olmalıdır”**

**Qanun layihəsinin müzakirəsi zamanı çıxış edən deputat Hikmət Babaoğlu deyib ki, Türkiyə ilə ortaq media platforması yaradırıqsa, orada ortaq dil olmalıdır. Parlament üzvünün sözlərinə görə, hazırkı yeni reallıqda buna diqqət edilməlidir:** ”Bu dil süni şəkildə formalaşdırıla bilməz. Ortaq platforma yaradılır, amma bizim televiziyalar türk filmlərini tərcümə edərək yayımlayır. Medianın inkişafı dövlətimizin diqqət mərkəzindədir. Yeni konsepsiya ilə bağlı nizamnamədə əksini tapan məsələlər öz həllini tapmalıdır”.

**“Ortaq media platformasının əhatə dairəsi KİV-i aşır”**

**Millət vəkili, Sosial Tədqiqatlar Mərkəzinin rəhbəri Zahid Oruc isə bildirib ki, ordular arasında ittifaq nə qədər əhəmiyyətlidirsə, informasiya sahəsində də bu ittifaqın qurulması o dərəcə əhəmiyyətlidir. Deputatın sözlərinə görə, memorandumun müddəalarından biri qaralama kampaniyasına qarşı birlikdə mübarizə aparmaqdır:** ”Biz 44 gündə Türkiyə və Azərbaycanın informasiya məkanının birləşdiyini gördük. Türkiyənin aparıcı kanalları Ali Baş Komandanla müsahibələr hazırladı, bu müsahibələri bütün dünyaya yaydı. Həmin günlər Türkiyə mediası, kanalları Azərbaycanla bağlı məsələni birinci planda saxladı. Qarabağla bağlı müzakirələr açdılar, bu məsələyə verilişlər həsr etdi. Hazırkı memorandumun məhək daşlarını 44 günlük müharibə dövründə olan münasibət təşkil edir. Ümidvarıq ki, hər iki ölkənin media qurumları dünyada özlərini daha sistemli təmsil etmək üçün çalışacaq. Ortaq media platformasının əhatə dairəsi KİV-i aşır. Bu mövzuda ortaq filmlər də çəkilməlidir. Memoranduma başqa dövlətlərin təmsilçiləri də qoşula bilər”.

**“İnformasiya müharibəsində gücümüz artacaq”**

**Deputat Qənirə Paşayeva da vurğulayıb ki, belə bir sənədin imzalanması Azərbaycan və Türkiyənin informasiya müharibəsində gücünü artıracaq:** ”44 günlük Vətən müharibəsi dövründə qardaş Türkiyənin televiziyaları və qəzetləri Azərbaycanın haqlı səsini bütün dünyaya çatdırdı. Beynəlxalq arenada rast gələnən dezinformasiyalara qarşı birgə mübarizə bu sənəddən sonra daha mükəmməl şəkildə təşkil olunacaq”.

**“İnformasiya müharibəsi davam edir”**

**Deputat Azay Quliyev bəyan edib ki, imzalanan sənəd həm Azərbaycan, həm də Türkiyə üçün gələcəkdəki hədəflərə çatmaq üçün çərçivə rolunu oynayacaq:** “İstənilən informasiya müharibəsində ayrı-ayrı dövlətlər arasında olan əməkdaşlıq çox vacibdir. 44 günlük müharibə dövründə bunu gördük. Qardaş Türkiyə bizə informasiya savaşında da dəstək verdi. Prezident İlham Əliyev müharibə dövründə diplomatiya sahəsində də savaş verdi. Türkiyə media təmsilçiləri Prezident İlham Əliyevə çox böyük dəstək verdi. Memorandumda konkret birgə əməkdaşlığın təməl prinsipləri müəyyənləşib. İnformasiya müharibəsi davam edir. Şübhəsiz, bu müharibənin arealı daha da genişlənəcək. Azərbaycanda Medianın İnkişafı Agentliyinin yaradılması bu baxımdan əhəmiyyətlidir. Agentlik türkiyəli həmkarlarla əməkdaşlıq üçün iş planı hazırlamalıdır. İnformasiya savaşında Türkiyənin dəstəyinə daha çox ehtiyacımız var. Memorandumun imzalanması bizim üçün tarixi əhəmiyyətlidir”.

**İsmayıl**



## İntizam komissiyasının tərkibi müəyyənləşib

**Milli Məclisin İntizam komissiyasının yeni tərkibi müəyyənləşib.**

Milli Məclisin dünən keçirilən iclasında ”Azərbaycan Respublikası Milli Məclisi İntizam komissiyasının yenidən təşkil edilməsi haqqında” qanun layihəsi müzakirəyə çıxarılıb.

Layihə müzakirələrdən sonra səsə qoyularaq qəbul edilib. Bununla da Milli Məclisin İntizam komissiyasının yeni tərkibi müəyyənləşib.

Komissiyaya deputatlar Fəzail Ağamalı, Nurlan Həsənov, Afət Həsənova, Məlahət İbrahimqızı, Eldar İbrahimov, Nəsib Məhəməliyev, Hikmət Məmmədov, Məşhur Məmmədov, Səttar Möhbalıyev, Madər Musayev, Nizami Səfərov daxildir.

## Özü ərizə yazıb

### Məhəbbət Vəliyeva səhhəti ilə bağlı tutduğu vəzifədən azad edilib



**Təhsil nazirinin müavini Məhəbbət Vəliyevanın vəzifəsindən azad edilmə səbəbi açıqlanıb.**

Təhsil Nazirliyindən Trend-in sorğusuna cavab olaraq bildirilib ki, M.Vəliyeva 25 dekabr 2020-ci il tarixindən öz ərizəsinə əsasən, səhhəti ilə bağlı tutduğu vəzifədən azad edilib.

*M.Vəliyeva 2018-ci ilin iyunun 27-dən təhsil nazirinin müavini vəzifəsini icra edirdi.*

*O, buna qədər Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri idi.*

# Türkiyəni Azərbaycandan kənarda saxlamaq mümkün deyil

## Ona görə Rusiya rəsmiləri qalib ölkəyə münasibətdə daha ehtiyatlı cümlələrdən istifadə etməlidir

“Qarabağ münaqişəsinin nizamlanması Türkiyə ilə müzakirə edilməlidir. Regionun reallığı belədir”. Bunu Rusiya Federasiyası Təhlükəsizlik Şurası sədrinin müavini Dmitri Medvedyev deyib. O bildirib ki, Türkiyə Rusiyanın qonşusudur və çox vacib tərəfdaşıdır:

”Türkiyə Azərbaycan üçün çox yaxın ölkədir. Bu faktı nəzərə almamaq mümkün deyil”. Medvedyevin sözlərinə görə, Moskva və Ankara arasında məhsuldar dialoq qurulub, iki ölkənin prezidentləri bu mövzu ilə bağlı daim danışıqlar aparıblar: ”Türkiyə və Rusiya hərbçilərindən ibarət xüsusi nəzarət mərkəzinin yaradılması haqqında qərar qəbul olunub. Bu da ümumi sabitləşmənin elementidir. Ancaq bunu hansısa uzunmüddətli siyasətin bir elementi kimi qiymətləndirməzdim və ya burada konspiroloji nəzəriyyələrdən birini qurmazdım. Sadəcə regionda mövcud olan reallıqları nəzərə almalıyıq. Və reallıqlar elədir ki, bu gün bu məsələ Türkiyədən olan tərəfdaşlarla müzakirə edilməlidir”.

Bununla yanaşı Medvedev vurğulayıb ki, Qarabağın statusu məsələsi həll edilməyib, lakin indi onu müzakirə etmək olmaz: ”Ən yaxşısı bu məsələnin gələcəyə saxlanılmasıdır”.

**Rusiya təmsilçisinin ifadələrini “Şərq”ə təhlil edən politoloq Turan Rzayev bildirib ki, Kreml rəsmilərinin mövqeləri demək olar ki, eynidir. Ekspertin sözlərinə görə, Rusiya rəsmiləri ermənilərdən fərqli olaraq ikibaşlı fikir səsləndirmirlər:** ”Bunun başlıca səbəbi indiki məqamda rəsmi Bakını narazı salmamaqdır. Müharibə Azərbaycanın qələbəsi ilə başa çatıb. Ona görə də Rusiya qalib ölkəyə münasibətdə daha ehtiyatlı cümlələrdən istifadə etməlidir. Vurğulandığı kimi Azərbaycan üçün Türkiyənin əhəmiyyəti böyükdür. Xüsusilə 44 günlük Vətən savaşında qardaş ölkənin hərbi və diplomatik dəstəyi müstəsna əhəmiyyət kəsb etdi. Moskva bu reallığı gözəl bilir və anlayır ki, Türkiyəni Azərbaycandan, dolayı yolla Cənubi Qafqazdan kənarda saxlamaq



qeyri-mümkündür. Geriyə bir yol qalır, o da Ankara ilə normal əməkdaşlıq etməkdir. İstəyimiz odur ki, Türkiyə hərbçiləri bölgədə rus sülhməramlıları səviyyəsində genişmiqyaslı fəaliyyət göstərsinlər. Yəqin ki, yenicə fəaliyyətə başlamış Türkiyə-Rusiya Monitorinq Mərkəzi çərçivəsində qardaş ölkənin proseslərdə yaxından iştirakı mümkün hala gələcək. Moskva rəsmi Bakının israrlarını və Ankara reallığını nəzərə alaraq Türkiyə ilə ortaq çalışmalara razılıq verdi. Proseslərin hansı məcraya yönələcəyi yaxın günlərdə aydınlaşacaq. Hə halda Mərkəzdə Azərbaycanın varlığı bizi rahatladan mühüm amildir”.

*Analitikə görə, Rusiya Medvedyevin iddia etdiyi kimi Qarabağın ”statusu” məsələsini gələcəyə saxlamaq istəyir:* ”Moskvanın ”status” dedikdə konkret nəyi nəzərdə tutduğu da dəqiq deyil. Yəni söhbət bölgənin siyasi ”statusun”dan gedir, yoxsa ermənilərin torpaqlarımızda hansı ”status”la yaşamasından danışılır, bəlli deyil. Hər halda rəsmi Bakının qəti mövqeyi ortadadır. Azərbaycan rəhbərliyi dəfələrlə bəyan edib ki, Qarabağda heç bir siyasi ”status” olmayacaq. Ermənilər isə ancaq Azərbaycan vətəndaşı kimi torpaqlarımızda yaşaya bilərlər”.

**İsmayıl Qocayev**

# Ölkədə məhkəmə islahatları gedir, Ali Məhkəmə səssizdir

## İndiyə qədər bir dəfə də olsun qanunvericilik təşəbbüsü götərməyiblər



**Dünən Milli Məclisin 2021-ci il yaz sessiyasının ilk plenar iclası keçirilib. İclasın gündəliyinə 19 məsələ daxil edilib və bir neçə qanun layihəsi birinci oxunuşda qəbul olunub. İclas zamanı cari məsələlərin müzakirəsi də aparılıb və cəmiyyəti narahat edən bəzi məqamlar müvafiq qurumların diqqətinə çatdırılıb. Milli Məclisin sədri Sahibə Qafarova açılış nitqində deyib ki, Prezident İlham Əliyevin liderliyi və müdrikliyi xalqımızı qələbədən qələbəyə aparır:**

"Bu gün biz qürurla söyləyirik ki, Ali Baş Komandanın rəhbərliyi ilə şanlı ordumuz ermənilər üzərinə qələbəyə nail olub. Dağlıq Qarabağ münaqişəsi tarixdə qalıb. Prezidentin də dediyi kimi bu, müharibə dünyaya Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu göstərdi. Biz öz torpaqlarımıza qayıdırıq. Bu torpaqlarda əbədi yaşayacağıq". Spiker parlamentin yenilənmiş saytının istifadəçilərin ixtiyarına verildiyini deyib. Sədr həmçinin, vurğulayıb ki, bu yaxınlarda İctimai TV-də "Parlament saatı" verilişi efirə gedəcək: "Bu, keçən sessiyada olmalı idi. Ancaq mövcud şərait nəzərə alındı. Bu yaxınlarda parlamentlə bağlı veriliş efirə veriləcək. Parlamentin saytı da artıq yeniləndi. Bu, zamanın tələbi idi".

**"YAŞAT" Fondunun nümayəndələri Şəkidən olan bütün şəhid ailələrinə baş çəkiblər"**

**Deputat Əli Məsimli qanunvericilikdə şəhid ailələrinin xeyrinə dəyişiklik edilməsini təklif edib. Bildirib ki, şəhidlərin oxuduğu məktəblər onların adlarını daşısın:** "Eyni zamanda, küçələrə də şəhidlərin adı verilsin və onların adı əbədiləşdirilsin. Dövlət səviyyəsində olan məsələləri dövlət həll edib. Qanunvericilikdə də şəhidlərin, şəhid ailələrinin xeyrinə dəyişiklik etməliyik. Əsasən də, çoxuşaqlı ailədən olan şəhid ailələrinin üzvlərinə müavinət verilməsi məsələsinə bu cür dəyişiklik edilməsinə ehtiyac var".

**"Hərbi doktrinaya yenidən baxılmalıdır"**

**Millət vəkili Zahid Oruc qeyd edib ki, dünyanın bir çox ölkəsində təhlükəsizlik konsepsiyalarına dəyişikliklər edilib:** "44 günlük Vətən müharibəsində qələbəmiz regionda yeni reallıq yaradıb. Biz Kəlbəcərdən Zəngilana qədər 600 km-lik ərazidə üstünlük əldə etmişik. Azərbaycan həm NATO, həm də KTMT ilə eyni məsafədə qalmağı seçdi. Hərbi doktrinada bu var idi. Azərbaycan ərazisində hərbi bazaların olması məsələsi də hərbi doktrinada yer alıb. Bu məsələyə baxa bilərik. Eləcə də Vətən müharibəsi göstərdi ki, Bakı, Mingəçevir kimi şəhərlər və oradakı strateji obyektlər yüksək səviyyədə qorundu. Bununla bərabər, Bərdə, Gəncə şəhərinin qorunmasında düşmən boşluqlar tapa bildi. Hərbi doktrinada bu məsələlər yer ala bilər".

**"Xarici hərbçilərin statusu müəyyənləşdirilməlidir"**

**Milli Məclisin üzvü Qüdrət Həsənquliyev ölkəmizdə olan xarici hərbçilərin statusunun müəyyənləşdirilməsinə ehtiyac yarandığını söyləyib. O bildirib ki, xarici hərbçilərin statusu ilə bağlı qanunvericilikdə hər hansı müddəa yoxdur:** "Onların hüquqi statusu ilə bağlı məsələ həllini tapmalıdır. Məsələn, onların toxunulmazlıq hüququ varmı? İşğaldan azad edilmiş ərazilərdə sülhməramlılar, monitorinq mərkəzində olan hərbçilər var. Orada hər hansı cinayət törədilsə onların hansı hüquqları olacaq?! Ya yeni qanun qəbul edilməlidir, ya da Azərbaycan hökumətinin sülhməramlı kimi digər ölkələrdə iştirakı ilə bağlı qanuna yeni fəsil əlavə olunmalıdır".

**"Rəqabət Məcəlləsinin qəbulunun gecikməsi yolverilməzdir"**

**Deputat Əli Məsimli "Rəqabət Məcəlləsi"nin qəbulunun gecikməsinin yolverilməz olduğunu deyib. Bildirib ki, bu məcəllə qəbul edilsə, çox müsbət dəyişikliklər olacaq:** "Xüsusilə qeyri-neft sektorunun inkişafı üçün Rəqabət Məcəlləsinin qəbuluna ehtiyac var. Həmçinin, yanvarın 30-da Prezidentin fərmanına əsasən, dövlət nəzarət informasiya sistemi yaradılıb. Qanunvericiliklə qanunlara nəzarət Milli Məclisdədir. Biz buna görə də qanunlara nəzarətin gücləndirilməsi üçün işlək mexanizmi tapmalıyıq. Biz qanunların təftişi ilə əlaqədar xüsusi işçi qrupları yaratmalıyıq".

**Ali Məhkəmə təşəbbüs göstərmir**

**Millət vəkili Fazil Mustafa qeyd edib ki, ölkədə məhkəmə islahatları gedir, ancaq Ali Məhkəmədən indiyədək qanunvericilik təşəbbüsü görülməyib:** "Ali Məhkəmə bu sahədə ciddi qanunvericilik təşəbbüsü ilə çıxış etməlidir. Baş Prokurorluğa da, Naxçıvan Ali Məclisinə də qanunvericilik təşəbbüsləri hüququnun olması xatırladılmalıdır. Milli Məclisdə ancaq Prezidentin imzası ilə gələn qanunlar qəbul edilir. Bu, əslində, doğrudur. Amma digər qurumların da qanunvericilik təşəbbüsü ilə çıxış etmək hüququ var. Bu, onlara xatırladılmalıdır".

**"Parlamentin internet televiziyasını yaratmalıyıq"**

**Deputat Siyavuş Novruzov parlamentin internet televiziyasının yaradılmasının zəruri olduğunu deyib. Deputat bildirib ki, parlamentdə olan partiyaların nümayəndələrinin debatını həmin televiziyada təşkil etmək mümkündür:** "Milli Məclisin fəaliyyəti ilə bağlı qərəzli fikirlər söylənilir. Elə məsələlər var ki, parlamentin səlahiyyətinə daxil olmasa da, bunu parlamentin adı ilə bağlamağa çalışırlar. Bu kimi halların qarşısını almaq üçün Milli Məclisin internet televiziyasını yarada bilərik. Bununla öyrədilmiş insanların böhtanının qarşısını ala bilərik".

**"Yanvar ayına qədər hərbçilərin maaşı kəsilə bilməzdi"**

**Deputat əlavə edib ki, yanvar ayına qədər hərbçilərin maaşı kəsilə bilməzdi:** "Burada problem yaranıb. Çünki bu məsələ müharibədən əvvəl öz həllini tapmış məsələdir. Yanvara qədər maaş verildikdən sonra yeni dislokasiyaya ehtiyac yarana bilər. Təbii ki, ön cəbhədə olan hərbçi ilə Bakıda oturan hərbçi eyni maaşı ala bilməz. Bu, dünya təcrübəsində də belədir. Bizim qalib hərbçilərimiz təltif olunmalı, hər cür mükafata layiq görülməlidir. Ancaq verilən açıqlamada hansısa qanunun maddəsi ilə əlaqələndirməyə çalışdılar, bu, səhvdir. Bu, icra mexanizmidir".

**"Xaricdə yaşayan soydaşlarımız şəxsiyyət vəsiqəsi əsasında pasport alırlar"**

**Millət vəkili Sabir Rüstəmxanlı isə vurğulayıb ki, pasportlar haqqında əsasnaməyə dəyişiklik edilməlidir. Deputat bildirib ki, bu sahədə bir sıra uyğunsuzluqlar var:** "Bununla bağlı qanun layihəsi hazırlamışam, təqdim edəcəm. ASAN Xidmət bu sənədləşməni çox asanlaşdırıb. Xaricdə yaşayan soydaşlarımız şəxsiyyət vəsiqəsi əsasında pasportu alırlar. Müharibəyə, yaxud xəstəliyə görə bu vətəndaşlarımızın sənədlərinin vaxtı keçib. Onlar işləyə bilmirlər. Təklif edirəm ki, ASAN Xidmətin səyyar qrupu azərbaycanlıların ən çox olduğu ölkələrə - Rusiya, Türkiyəyə göndərilsin".

**İsmayıl**

# Qarabağda daha terror hərəkətlərinin qarşısı alınacaq

## Türk hərbçilərinin də regionda rəsmi mövcudluğu qaranlıq məqamlara aydınlıq gətirəcək

**Yanvarın 30-da Ağdam rayonunun işğaldan azad edilən ərazisində Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin açılış mərasimi keçirilib.**

Monitorinq Mərkəzinin ümumi sahəsi 4 hektara yaxındır. Ərazidə 65 ədəd modul tipli xidməti, inzibati və yaşayış otaqları var. Bütün otaqlar zəruri avadanlıqlar, su, elektrik və istiliklə təmin olunub. Burada hər iki tərəfin birgə istifadəsi üçün ümumi monitorinq mərkəzi, brifinq zalı, 100 nəfərlik yeməkxana, tibb məntəqəsi, camaşırxana, bərbər, dərzi, mağaza da var. Ərazidə su stansiyası, transformator, generator, avtomobil dayanacağı, açıq havada iki idman şəhərciyi, eləcə də iki örtülü idman zalı, ərzaq və soyuducu anbarlar yerləşir. Bütün əraziyə perimetr boyu hasar çəkilib, 4 ədəd müşahidə nəzarət qülləsi quraşdırılıb və sutkalıq mühafizə təşkil olunub. Şəxsi heyətin istirahətinin təşkili üçün zəruri avadanlıqla tam təmin edilmiş otaqlar da hazırlanıb. Mərkəzin mühafizəsi Azərbaycan Ordusunun hərbi qulluqçuları tərəfindən həyata keçiriləcək. Monitorinq mərkəzinin türkiyəli şəxsi heyətinə general-mayor Abdullah Katırcı, rusiyalı şəxsi heyətinə isə general-mayor Viktor Fedorenko rəhbərlik edir. Türkiyənin müdafiə naziri ortaq mərkəzdə bir generalın və 38 personalın təmsil olunacağını bildirib. Ekspertlərə görə, çoxdandır gözlənilən Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyətə başlaması sülhyaratma missiyası baxımından yeni mərhələnin start götürdüyü anlamına gəlir. Mərkəz sülhün möhkəmlənməsinə töhfə verməklə yanaşı, Qarabağda terror hərəkətlərinin də qarşısını alacaq. Yəni xırda problemləri nəzərə almazsaq, Mərkəz Qarabağda sülh və əminamanlığı təmin edəcək və təxribatçı hərəkətlərin qarşısını dərhal alacaq.



**Qafqaz Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Araz Aslanlı "Şərq"ə deyib ki, 10 noyabr anlaşmasından sonra Rusiya sülhməramlılarının təcili Qarabağa yerləşməsi cəmiyyətdə çaşqınlığa səbəb oldu.** Ekspertin sözlərinə görə, məhz bu narahatlıqdan sonra yaxın günlərdə Türkiyə-Rusiya Monitorinq Mərkəzinin yaradılacağı məsələsi gündəmə gətirildi: "Xeyli vaxtdır həm Türkiyə, həm də Azərbaycan mediasında ciddi müzakirə olunurdu ki, türk hərbçiləri prosesdə necə iştirak edəcək, sayları nə qədər olacaq və s. Eyni zamanda Rusiya rəsmilərinin təzadlı açıqlamaları ortamı gərginləşdirirdi. Birgə Monitorinq Mərkəzinin yaradılması və açılış mərasimi bir çox məqamlara aydınlıq gətirdi. Türk hərbçilərinin regionda rəsmi şəkildə mövcudluğunun Kreml tərəfindən qəbul olunması olduqca mühüm amildir. Vacib nüanslardan biri də monitorinqin iki ölkənin təmsilçilərinin iştirakı ilə birgə aparılmasıdır. Əvvəlki dönəmlərdə bu missiyanın ancaq Moskva tərəfindən icra olunacağı iddia olunurdu. Amma gördüyümüz kimi artıq qardaş Türkiyə bu prosesdə yaxından iştirak edəcək".

**Siyasi şərhçi vurğulayıb ki, Ankara ilə Bakı arasında imzalanmış əlahiddə anlaşmalara əsasən, Monitorinq Mərkəzindən əlavə türk hərbçilərinin digər ərazilərimizdə də fəaliyyəti mümkündür:** "Mərkəz Qarabağdakı proseslərə ümumi nəzarəti həyata keçirəcək və düşünürəm ki, nəticə müsbət olacaq. Hazırda sülh quruculuğu mərhələsində yaşayırıq. Gələcəkdə Ermənistanın hansısa təxribata və işğala əl atacağı, rus sülhməramlılarının öz öhdəliklərini yerinə yetirməsi və s. məsələlər Mərkəzdəki türk hərbçilər tərəfindən diqqətlə izləniləcək. Digər problemlər isə birbaşa Azərbaycan və Türkiyə rəsmiləri arasında həll ediləcək. Nəzərə alaq ki, Monitorinq Mərkəzindəki hərbçi sayı Rusiya sülhməramlılarından çox azdır. Hesab edirəm ki, ictimaiyyətdə narahatlığa səbəb olan rus sülhməramlıları məsələsini nisbətən balanslaşdırmaq üçün türk hərbçilərinin ölkəmizin müxtəlif yerlərində fəaliyyətə cəlb olunmasına da ehtiyac var".

**İsmayıl Qocayev**

# Səfirlərimiz hədəfdədir

## Xaricdə erməni terroru yenidən canlanır



Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva ABŞ-dakı səfirimizin erməni qüvvələri tərəfindən təhdid edildiyini deyib. O bildirib ki, bu kimi əməlləri qətiyyətlə pisləyir və müvafiq ölkələrdə bu kimi təxribatların qarşısının alınmasına məsul olan qurumların vəzifələrinə tam məsuliyyətlə yanaşmalarını gözləyirlər:

### Asim Mollazadə: "ABŞ dövlətinin təhdidlərlə bağlı konkret məlumat verməyini gözləyirik"

"Təəssüflə qeyd etmək istərdik ki, ilk dəfə deyil ki, erməni radikal ünsürlərinin azərbaycanlı diplomatlara, eləcə də bu ölkələrdəki azərbaycanlı icmaların üzvlərinə qarşı yönələn nifrətə əsaslanan cinayət əməlləri ilə üzləşirik. Ötən ilin iyul ayında xarici ölkələrdə, o cümlədən ABŞ-da dinc azərbaycanlı nümayişçilərə, eləcə də diplomatik nümayəndəliklərimizə qarşı radikal erməni qüvvələri tərəfindən son dərəcə aqressiv təxribatçı əməllərin həyata keçirildiyini xatırlatmaq istərdim.

Məlum olduğu kimi, 1961-ci il Diplomatik Əlaqələr haqqında Vyana Konvensiyasına əsasən diplomata qarşı, onun şəxsiyyətinə, azadlığına və şərəfinə qarşı hər hansı hücumun qarşısının alınması qəbul edən ölkənin məsuliyyətindədir.

Vurğulamaq istərdim ki, xarici ölkələrdəki radikal ermənilərin bu kimi əməlləri onu nümayiş etdirir ki, bu insanlar bölgəmizdə sülh və əminamanlığın bərqərar olması, xalqların birgə yaşayışında maraqlı deyillər. Onların bu əməlləri yalnız xalqlararası ədavət və düşmənçiliyin qızışdırılmasına xidmət edir. Bu isə bir daha onu göstərir ki, xarici ölkələrdəki bu kimi erməni ünsürləri nə Ermənistanın, nə də erməni xalqının gələcək rifahını düşünmürlər".

**Millət vəkili Asim Mollazadə "Şərq"ə açıqlamasında bildirib ki, erməni radikal qüvvələri tərəfindən azərbaycanlı səfirlərin təhdid edilməsi yeni bir hadisə deyil:** "Erməni terror təşkilatları bir sıra türk diplomatlarını qətlə yetiriblər. Bu hadisə onu göstərir ki, erməni terrorizmi yenidən canlanır və ciddi təhlükə kəsb edir. Azərbaycan dünyada mövcud olan antiterror koalisiyasının üzvü kimi bu təhlükəni dünyanın gözü önünə sərməlidir. Eyni zamanda terrorla mücadilə üçün beynəlxalq mübarizə təşkil olunmalıdır".

**A.Mollazadə qeyd edib ki, Azərbaycan dövləti səfirin konkret olaraq kimlər tərəfindən təhdid edildiyini tələb etməlidir:** "Beynəlxalq sazişlərə uyğun olaraq ABŞ hökuməti diplomatlarımızın həyatı üçün mövcud olan təhlükələrin qarşısını almalıdır. Onları təhdid edənlər zərərsizləşdirilməlidir. Amerika dövlətinin təhdidlərlə bağlı konkret məlumat verməyini gözləyirik".

**Yeganə Bayramova**

## Türkiyə türk millətinin əleyhinə olan oyunları pozmağı bacarıb

### Çavuşoğlu: "Biz Qafqazda diplomatik həll yolu istəyəndə, buna razı olmayanlar indi siyasi çözüm istəyirlər"



**"Biz Cənubi Qafqazda sülhün bərqərar olması üçün diplomatik həll yolu istəyəndə, buna razı olmayanlar indi siyasi çözüm istəyirlər, bəli, biz buna da razıyıq".**

APA-nın yerli bürosunun xəbərinə görə, bunu Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu hakim Ədalət və İnkişaf Partiyasının (AKP) Antalyada keçirilən konqresində bildirib.

Cavuşoğlu qeyd edib ki, Türkiyə yeri gələndə sakit gücünü, yeri gələndə də sərt gücünü istifadə edə bilib və Türkiyənin, türk millətinin əleyhinə olan oyunları pozmağı bacarıb: "Suriyada, Liviyada, Şərqi Aralıq dənizində, Qarabağda olanlar göz önündədir. Dağlıq Qarabağda 30 ildir işğal vardı, zülm vardı. Dəfələrlə diplomatik həll yolu irəli sürdük, razılıq olmadı. Nooldu? Can qardaşımız Azərbaycan döyüş meydanına girdi, haqqını, işğalda olan torpaqlarını geri aldı. Amma indi diplomatiya, siyasi həll yolu istəyirlər, bəli, biz buna da varıq. Cənubi Qafqazın rifahı üçün 3+3 formatında, ikitərəfli, üçtərəfli görüşlər davam edir, bölgədə atəşkəsə nəzarət edirik, Ermənistan bu dərslərdən dərs alıb, düzgün davranarsa ən çox qazanc götürən Ermənistan olacaq".



## Nazir ümid edir

### Şagirdlər, tələbələr yenidən sinfə, auditoriyaya qayıda biləcəklər

**Ümid edək ki, COVID-19-la bağlı ölkə ərazisindəki vəziyyət getdikcə yaxşılaşacaq və bütün siniflər üzrə şagirdlər, həmçinin tələbələr yenidən sinfə, auditoriyaya qayıda biləcəklər.**

Bunu Təhsil naziri Emin Əmrullayev özünün sosial şəbəkədəki səhifəsində yazıb. Nazir qeyd edib ki, bu gün uzun zaman sonra məktəbin yenidən canlandığı gündür: "Yəqin ki, bu gün hər yerdə sinif yoldaşlarını, müəllimini görmək üçün məktəbə tələsən şagirdlərə rastlamısınız".

## Konstitusiya Məhkəməsinə yeni hakim təyin olunub

**Konstitusiya Məhkəməsinə yeni hakim təyin olunub.**

Bununla bağlı məsələ Milli Məclisin yaz sesiyasının dünən keçirilən ilk iclasında müzakirə edilib.

Belə ki, Humay Elçin qızı Əfəndiyevanın Konstitusiya Məhkəməsinin hakimi vəzifəsinə namizədliyi irəli sürülüb. Təklif səsə qoyularaq qəbul edilib.

# "İntihar peşəkar xəbər yükünə malik ola bilməz"

### Əflatun Amaşov: "Media belə məsələlərə xüsusi həssaslıqla yanaşmalıdır"



"Son günlər intihar hadisələri ilə bağlı materialların sayında müəyyən artım görürəm. Dəfələrlə bildirilib ki, belə olaylara yer verilməsi düzgün deyil. Bunu söyləyənlər əsasən onu üzərində dayanırlar ki, kimlər üçünsə intihar adiləşə bilər, normaya çevrilər. Mən də eyni qənaətdəyəm. Bəs necə olur ki, məsələyə həssas yanaşılmır?".

**Bu sözləri Mətbuat Şurasının sədri Əflatun Amaşov mediadakı intihar xəbərləri barədə "Şərq"ə danışarkən deyib.**

**Onun fikrincə, belə xəbərlər daha çox peşəkar mediada oxunur:** "Əvvəla ona görə ki, intihar anı, əsasən də gördüyümüz hündürmərtəbəli binadan özünü atma epizodu istər-istəməz maraq doğurur. Çoxları bu anı lentə alarkən, bəlkə də düşünür ki, onun qarşısının necə alındığını görüntüləyəcək, ancaq kadra intihar prosesinin özü düşür və o proses sonradan sosial şəbəkələrdə yayılır. Yəni bu halda yayıcı sıravi vətəndaş olur. Ancaq sıravi vətəndaşın nə qədər auditoriyası ola bilər? Lap hesab etsək ki, yayılmış materialı ayrı-ayrı şəxslər biri-birlərinə ötürürlər, belə olduqda da məsələnin ciddi məzmun qazandığını düşünmürəm. Məsələ o zaman ciddiləşir ki, həmin intihar səhnəsi kütləvi informasiya vasitəsinə yol tapır. Əgər intihar videosunu hansısa dostunun "watsapp" paylaşımından izləyən şəxs ona sadəcə tükürpədici olay kimi tamaşa edirsə, internet mediada baxan biri üçün təsəvvür tamam başqadır. Bu zaman olay belə desək, ictimailəşmiş qiyafədə olur. Artıq dövriyyəyə düşüncələr girir. Yəni sıravi vətəndaş fikirləşir ki, hansısa intihar videosu mediada yer alıbsa, demək ki, motiv ciddidir. Üstəlik, media yalnız videogörüntü paylaşmır, detallara varır".

**Mətbuat Şurasının sədrinin sözlərinə görə, media belə məsələlərə xüsusi həssaslıqla yanaşmalıdır:** "Bəs yaxşı, intiharın ictimai və ya sosial motivli olması mümkündürmü? Hesablamalara görə, ən çox intihar Skandinaviya ölkələrində baş verir. O ölkələrdə ki, həyat şəraiti kifayət qədər yüksəkdir. İctimai münasibətlər sistemi xeyli təkmildir. Amma intihar var. Demək, məsələyə ən müxtəlif tərəflərdən yanaşmaq lazımdır. Yəni hər bir halda yanaşmaq lazımdır, çünki bu proses psixoloji mahiyyət daşıyır. Psixoloji mahiyyətdə isə fərdi amillər ön planda olur. Sual yaranır: fərdi məsələnin ictimailəşməsi düzgündürmü? Nəzərə alaq ki, fərdi məsələlərdə ictimailəşməni doğura biləcək motiv o qədər də yüksək deyil. Yəni düşünək, müharibə apardıq, şəhidlərimiz oldu. Mediamız onların həlak olma anını, keçdiyi ömür yolunu işıqlandırır. Bununla bağlı epizodlar hər birimizə təsir göstərir, içdən yanırıq, sarsılırıq.

### "Hər hadisə KİV və cəmiyyət üçün hadisə deyil. Yəni ictimai məzmun daşıyan hadisə deyil"

Amma burada fərdi faciə ictimai motiv qazana bilir. Çünki şəhid olanlar torpaqlarımızın işğaldan azad olunması uğrunda canlarından keçiblər. Düşünək, intiharda belə bir motiv varmı?

Yoxdur. Belə olan halda media nə üçün intiharları işıqlandırmağa yer versin ki? Əlbəttə, mən intiharın hansısa kriminal zəmindən doğduğu və onun cəmiyyətin dinc və birgə yaşam qaydalarını da təhdid edə bilmə ehtimalını kənara qoymuram. Ancaq sırf intihar anı cəmiyyətə heç nə deməyən, heç nə aşılamayan bir görüntüdür.

Əksinə, ruh düşkünlüyü yaradan, əvvəldə də dediyim kimi, kimlər üçünsə intiharı normaya çevirə bilən, adiləşdirən şüuraltı siqnaldır. Uzun sözün qısası, media orqanlarımız məsələyə həssas yanaşmalıdırlar.

Daha yaxşı olardı ki, müvafiq dövlət qurumlarımız da buna daha ciddi diqqət yetirsinlər. Nəzərə alaq ki, onlar ilk mənbə rolunda çıxış edirlər. Hər hadisə KİV və cəmiyyət üçün hadisə deyil.

Yəni ictimai məzmun daşıyan hadisə deyil. İntihar isə özlüyündə ümumiyyətlə peşəkar xəbər yükünə malik ola bilməz. İzah etdim nəyə görə".

**Kənan Novruzov**

# Sürücülük vəsiqəsinin daşınmasına ehtiyac qalmadı

## Avtoxuliqanlıq xətasının törədilmə üsulları dəqiq müəyyən edilib



**Milli Məclisin dünənki iclasında "Yol hərəkəti haqqında" qanuna dəyişiklik müzakirəyə çıxarılıb və səsə qoyularaq birinci oxunuşda qəbul edilib. Layihəyə əsasən, avtoxuliqanlıq halları və buna görə tətbiq edilən cəzalar konkretləşdirilib və bir sıra hallar üzrə cərimələr ləğv olunub.**

Əvvəlki qanuna görə, sürücünün görünüş dairəsini məhdudlaşdıran, şüşənin şəffaflığını korlayan pərdə və plyonka nəqliyyat vasitələrinin nasazlıqları sırasına daxil idi. Yeni layihəyə əsasən bu sıraya jalüz çəkilməsi də əlavə edilib. Həmçinin, avtomobillərin və avtobusların qabaq şüşəsinin yuxarı hissəsində rəngli, şəffaf plyonka bərkidilməsinə dair müddəa ləğv olunub. Sənaye üsulu ilə hazırlanan rəngli şüşələrin tətbiqinə isə icazə verilib. Avtomobillərin dayanma və durma qaydalarının pozulmasına görə cərimənin tətbiq edilməsi qaydası da dəyişib. Gün ərzində təkrar cərimə tətbiqi ləğv edilib. Qeyd edək ki, dayanma və ya durma qaydalarını pozmağa görə 20 manat məbləğində cərimə müəyyən olunur. Dəyişikliyə görə, bundan sonra avtomobil qəzasında sağlamlığa zərər dəymədiyi halda hadisə yerini tərk edən sürücülər məsuliyyətə cəlb olunmayacaq. Xatırladaq ki, əvvəlki qanuna əsasən, sürücünün yol-nəqliyyat hadisəsi yerindən yayınması 100 manat məbləğində cərimə ilə müəyyən olunurdu. Bu dəyişiklik avtomobil yollarında baş verən kiçik yol-nəqliyyat hadisələrinə görə nəqliyyat axınının hərəkətini məhdudlaşdırmamaq və icraatı sadələşdirmək məqsədi daşıyır. Yeni dəyişikliyə əsasən, yollarda avtomobillərlə aşkar sürət yarışına girənlər bir ayadək inzibati həbs edilə bilərlər.

**"Layihədə avtoxuliqanlıq xətasının törədilmə üsulları dəqiq müəyyən edilib"**

**Deputat Kamal Cəfərov bildirib ki, "Yol hərəkəti haqqında" qanuna nəzərdə tutulan dəyişiklikdə layihədə avtoxuliqanlıq xətasının törədilmə üsulları dəqiq müəyyən edilib. Deputat deyib ki, təklif edilən yeniliklər bir neçə istiqamətdə qruplaşdırıla bilər:** "Birincisi, sürücülük vəsiqəsi, nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi və digər sənədlərin daşınması tələbi aradan qaldırılır. Dövlət Yol Polisi əməkdaşları bu məlumatları bort-kompüterlər vasitəsilə yoxlayacaqlar. İkinci əsas istiqamət və ictimaiyyətdə geniş müzakirələrə səbəb olan dayanma və durma qaydalarının pozulması ilə bağlıdır. Layihədə qeyd edilir ki, sürücü eyni inzibati xətanın gün ərzində törədilməsinə görə inzibati məsuliyyətə cəlb oluna bilməz. Burada bir məsələyə aydınlıq gətirmək istəyirəm. Çünki burada nəzərdə tutulan müddəa uzanan inzibati xəta anlayışı ilə bağlıdır. Misal üçün avtomobil dayanma və durma qaydasını pozub, 20 manat məbləğində cərimə edilib. 24 saat ərzində həmin avtomobilə eyni xətaya görə cərimə yazıla bilməz".

**"İstismar müddəti bitmiş avtomobillər üçün ciddi cərimələr müəyyən edilməlidir"**

**Milli Məclisin üzvü Qüdrət Həsənquliyev isə deyib ki, bizdə yanacaqdoldurma məntəqələrində elektromobillərin doldurulması üçün aparatlar yoxdur, eləcə də parkinqlərdə:** "İstismar müddəti başa çatmış avtomobillər üçün ciddi cərimələr müəyyən edilməlidir. Bu avtomobillər havanı əhəmiyyətli dərəcədə çirkləndirir. Digər tərəfdən, piyada keçidlərindəki xətlər daha yaxşı rənglənməlidir. Daha çox insanın keçdiyi keçidlərdə işıqforlar da quraşdırılmalıdır".

**"Yeraltı parkinqlərin qiyməti endirilməlidir"**

**Deputat Siyavuş Novruzov isə deyib ki, dövlət tərəfindən kifayət qədər vəsait ayrılıb, yeraltı parklar tikilib. Amma içərisinə girirsən, futbol meydançasına oxşayır:** "Təxminən on minlərlə maşının saxlanılması üçün yeraltı parklar var. Amma içərisi bomboşdur. Çünki ora 7-8-9 manat qiymət qoyublar. Aya vuranda 300 manata yaxın pul edir. Kim maşınını 300 manat verib yeraltı parkinqdə saxlayar? Bu qiymətlər aşağı salınmalıdır. Aidiyyəti strukturlar buna da baxmalıdır".

**İsmayıl**

# Sabitlik də olacaq, inkişaf da

## Qarabağda nəqliyyat əlaqələrinin bərpası çox vacibdir



**Rusiyanın paytaxtı Moskvada Dağlıq Qarabağ üzrə Azərbaycan, Rusiya və Ermənistan rəsmilərinin üçtərəfli görüşü keçirilib. Görüşdə üçtərəfli işçi qrupunun iştirakçıları nəqliyyat, təhlükəsizliyinin təmin edilməsi, habelə digər nəzarətlər üzrə mütəxəssislərin alt qruplarının yaradılması barədə qərar qəbul ediblər.**

Bu barədə Rusiya Baş nazirinin müavini Aleksey Overçuk məlumat verib. Rusiya Federasiyasının Nazirlər Kabinetinin saytında yerləşdirilmiş xəbərdə deyilir ki, tərəflər dəmir yolu, avtomobil və digər daşınmaların təminatları məsələləri üzrə, həmçinin, təhlükəsizlik də daxil olmaqla, sərhəd, gömrük, sanitar, baytarlıq, fitosanitar və kontrolun başqa növlərinə nəzarət üzrə ekspert alt qruplarının formalaşdırılmasını qərara alıblar. Tərəflər ekspert alt qruplarının formalaşdırılmasını 2 fevral 2021-ci ilə qədər tamamlamağa qərar verib.

**Millət vəkili, iqtisadçı-ekspert Vüqar Bayramov "Şərq"ə açıqlamasında deyib ki, beynəlxalq nəqliyyat əlaqələrinin bərpa edilməsi ilk növbədə regionun inkişafı baxımından çox mühümdür.** Deputat bəyan edib ki, Naxçıvan və Türkiyəyə çıxışın təmin edilməsi yerli iş adamlarının öz istehsal etdikləri məhsullarını alternativ yollarla Türkiyə və dünya bazarına çıxarmasına da imkan verəcək: "Xüsusən də, Naxçıvanla Azərbaycan arasında nəqliyyat dəhlizinin yaradılması. Nəzərə alsaq ki, bu, eyni zamanda üç ölkə rəhbərinin noyabrın 10-da imzaladığı bəyanatda da öz əksini tapıb. Bu baxımdan da artıq yeni mərhələdə biz Qarabağda və bütövlükdə regionda nəqliyyat əlaqələrinin mərhələli şəkildə bərpasını müşahidə edəcəyik. Bu həm nəqliyyat, həm də kommunikasiya əlaqələrinin bərpasına imkan verəcək".

**V.Bayramov qeyd edib ki, regionda stabillik və bütövlükdə regionun inkişafı baxımından nəqliyyat əlaqələrinin bərpası çox vacibdir:** "Naxçıvanla Azərbaycan arasında quru yolun bərpası məhz qısa zamanda və səmərəli yolla Türkiyəyə çıxışı təmin edir. Eyni zamanda bu nəqliyyat əlaqələri şərq nəqliyyat əlaqələrinə inteqrasiya olunacaq. Təbii ki, bu da beynəlxalq yükdaşımaların və sərnişindaşımalarının həyata keçirilməsinə imkan verəcək".

**Aynurə**

# Qəfil bahalaşma...

## Millət vəkilləri də etiraz etdilər

Milli Məclisin dünənki plenar iclasında Tarif Şurasının suyun qiymətinin qaldırılması ilə bağlı məlum qərarı da müzakirə mövzusu olub. Bəzi deputatlar Şuranın fəaliyyətindən və daha çox həftə sonu alınan qəfil bahalaşma qərarından narazılıq ifadə ediblər. Millət vəkili Tahir Kərimli deyib ki, Tarif Şurasının qərarlarına görə deputatlar camaatın qabağına çıxa bilmir:

"Bu gün Azərbaycanın üstündə kabus əmələ gəlib ki, bu kabus Tarif Şurasıdır. Heç kim bilmir ki, orada kimlər var. Gizli qərar verirlər və bu qərarları zəlzələ effekti verir. Zəlzələni də, onların qərarlarını əvvəlcədən müəyyən etmək mümkün olmur. Konstitusiyaya əsasən, Azərbaycan dövlətinin ən ali məqsədi xalqın rifah halının yaxşılaşdırılması olmalıdır. Tarif Şurası xalqın rifah halını yüksəltməklə bağlı dövlətin ali məqsədini məhdudlaşdırır. Təcili Tarif Şurasını ləğv etməliyik. Ya da Tarif Şurasının qərarları bizə məruzə olunmalıdır. Əvvəllər xalq aprel ayını gözləyirdi ki, ucuzlaşma olacaq, indi əksi baş verir. Bu qərarlar cənab Prezidentin qələbə addımlarını kölgə altına alır".

**Tahir Kərimli: "Tarif Şurasının gizli qərarları ölkədə zəlzələ effekti verir"**



**Millət vəkili Sabir Rüstəmxanlı da qeyd edib ki, narazılıq yaradan addımlardan çəkinməliyik. Çünki böyük qələbənin sona qədər çatdırılmasına görə hamımız məsuliyyət daşıyırıq:** "Tarif Şurası benzinin qiymətini qaldırıb, ötən gün isə suyun qiyməti 2 dəfə artırılıb. Biz yaz sessiyasında Tarif Şurasını Milli Məclisə dəvət etməliyik. Hansı əsaslarla bu qərarların verildiyi bizə bildirilməlidir. Bununla bağlı dinləmələr keçirməliyik".

**Deputat Erkin Qədirli isə deyib ki, Tarif Şurasının qərarları büdcəyə müdaxilədir:** "Tarif Şurasında nazir müavinləri iştirak edir. Şuranın ləğv edilməsini tələb etmirəm, amma bu məsələ həllini tapmalıdır. Eləcə də müəyyən cərimə yığan qurumlar cərimələrin bir hissəsini özündə saxlayır. Bu da büdcəyə müdaxilədir. Parlamentdən kənar büdcəyə müdaxilə olmamalıdır. Lazım gələrsə, bununla bağlı Prezidentə də müraciət edək".

**Deputat Tahir Mirkişili həmkarlarının Tarif Şurasının qərarlarının dövlət büdcəsinə təsir edəcəyi ilə bağlı fikirlərinə münasibət bildirib. O deyib ki, dövlət büdcəsinin gəlirləri 3 istiqamətdən formalaşır:** - Neft Fondu, vergilər və rüsumlar. Bunların hamısı isə Milli Məclis tərəfindən qəbul edilir: "Tarif Şurasının qiymət qaldırmasının dövlət büdcəsinin gəlirlərinə ciddi təsir edəcəyini demək düzgün deyil. Büdcənin parlament tərəfindən təsdiq olunmuş gəlirləri nəzərdə tutulan gəlirlərdən 15 faiz çox olarsa, may ayının 15-dən oktyabr ayının 15-dək büdcəyə yenidən baxıla bilər".

**İsmayıl**

# "Kremlin istədiyi Qarabağda özünə "təhlükəsizlik zona"sı yaratmaqdır"

## Admiral Cihat Yaycı: "Əgər rus sülhməramlıları özlərini bölgədəki "sülh memarları" kimi göstərirlərsə, həmin silahları da yığmalıdırlar"



Deyirlər ki, siyasət mümkün olanı eləmək sənətidir. Biz Vətən müharibəsi dövründə bunu əyani şəkildə gördük. Belə ki, ordumuz hərb meydanında qarış-qarış irəlilədiyi bir vaxtda diplomatlarımız, siyasətçilərimiz də boş dayanmırdılar. Üç rayonumuzun bircə gülləsiz azad edilməsi məhz diplomatik cəbhədəki "artilleriyamızın" "dəqiq atəşi" nəticəsində mümkün oldu. Lakin hələ həllini tapmayan məsələlər var. Əlbəttə, rus sülhməramlılarının tərəfkeşliyi, düşmənin sərsəm açıqlamaları və digər məqamlar bizi narahat edir. Təkcə nigaranlıq keçirmir, həm də düşünürük. Düşünürük ki, həmin problemləri necə həll edək.

Azərbaycan xalqının vətənpərvərliyi, ordumuzun şücaəti qarşısında hər şeyin mümkün olduğuna şübhə yoxdur. Lazım gələrsə, yumruğumuzun gücünü yenə ortaya qoyarıq. Amma siyasət tələsik, ölçülüb-biçilməmiş addımları da sevmir. Deməli, ataların dediyi kimi, yüz dəfə ölçüb, bir dəfə biçməliyik.

*Türkiyənin dəniz qoşunlarının hazırda təqaüddə olan admiralı, Bahçeşehir Universitetinin Dənizçilik və Qlobal Strategiyalar Mərkəzinin sədri, beynəlxalq münasibətlər üzrə ekspert Cihat Yaycı hər birimizi düşündürən məsələlər haqqında "Şərq"in suallarını cavablandırıb:*

**- Azərbaycanın tarixi zəfərini necə qiymətləndirirsiniz?**

- Sovetlər İttifaqı dağılandan sonra bir çox post-sovet ölkəsi ərazi bütövlüyünün pozulması problemi ilə üzləşdi. Azərbaycan həm Türkiyə, həm İran, həm də Rusiya ilə sərhədi olan yeganə Cənubi Qafqaz ölkəsidir. Eyni zamanda sahib olduğu təbii sərvətlər də ölkənizi hər zaman həm regional, həm də beynəlxalq güclərin diqqət mərkəzində saxlayır. Düzdür, Azərbaycan hələ Qarabağ problemini tam həll etməyib. Fəqət, keçmiş sovet ölkələri ilə müqayisədə ən uğurlu siyasət yeridir və ən yaxşı nəticəni əldə edir. Ötən illər ərzində Azərbaycan bütün qüvvəsini məhz bu tarixi gün üçün səfərbər etmiş və Türkiyə ilə tək ürək kimi birləşmişdi. Deməliyik ki, Azərbaycanın ən müasir silahlarla, o cümlədən PUA-larla təmin olunmasında da Türkiyənin xüsusi rolu olub. 27 sentyabrda başlayan əks-hücum əməliyyatlarında bütün vətəndaşlar savaşa hazır idi - gənclər, orta yaşlılar, qadınlar. Qeydiyyatdan könüllü keçənlərin sayı minlərlə idi. Bu, türklərdəki "ordu və xalq" prinsipinin bariz təzahürü idi. Beləliklə, zəfərə gedən yolda hər şey hazır idi. Ən başlıcası isə cəsarət və ədalət var idi. Dediyim kimi, məsələ yüzfaizli həllini tapmayıb. Lakin cənab İlham Əliyevin təbirincə desək, status yoxdur. O, cəhənnəmə getdi! Fikrimcə, otuz il ərzində Azərbaycanın qət etdiyi yol özü böyük bir qələbədir. Ancaq hələ son deyil. Qazandığımız zəfərlə milli ruh, türkçülük zirvəyə çatdı. Azərbaycan türklərinin qurduğu dövlətin necə möhkəm təməl üzərində formalaşdığını hər kəs gördü. Həmçinin türkün cəsarət və qətiyyəti qarşısında heç bir qüvvənin tab gətirə bilməyəcəyi bir daha bütün dünyaya nümayiş etdirildi. Azərbaycan türk ordusu düşmənə göz dağı, dostun inam yeridir! Bu, belə bilinməlidir!

**- Qarabağdakı rus sülhməramlıları öz vəzifələrini yerinə yetirmirlər. Ayrı-ayrı faktlar onların erməniləri dəstəklədiklərini göstərir. Belə bir vəziyyətdə biz nə etməliyik?**

- Ümumiyyətlə, noyabrın 10-da imzalanan üçtərəfli bəyanatda bizi narahat edən bir çox məsələlər var. Bunlardan ən başlıcası isə rus sülhməramlıları ilə bağlı idi. Göründüyü kimi, nigaranlığımız əbəs deyilmiş. Rus sülhməramlılarının ermənilərin təhlükəsizliyini təmin etdiyi deyilir. Halbuki, Azərbaycan Prezidenti orada yaşayan ermənilərə bərabər hüquqların veriləcəyini söyləmişdi. Yəni əslində rusları tələşlandıracaq səbəb olmamalı idi. Çünki Azərbaycan müstəqil dövlətdir və öz ərazisində beynəlxalq hüququn normalarına uyğun qərar vermək imkanına, gücünə sahibdir. Cənubi Qafqazın, xüsusilə Xəzərə çıxışa malik və üç güclü qonşusu olan, əlverişli strateji mövqeyə sahib Azərbaycanın Rusiya üçün çox maraqlı olduğunu bilməliyik. Kremlin istədiyi burada özünə "təhlükəsiz zona" yaratmaqdır. Moskva bütün imkanları ilə çalışır ki, NATO qüvvələri onun sərhədlərindən uzaq olsun. Rusiyanın Ermənistanda hərbi bazasının olduğu məlumdur. Həmin baza İranla yox, məhz Türkiyə ilə sərhəddir. Rus sülhməramlılarının regionda yerləşdirilməsinin məqsədi isə Türkiyənin güclənməsinə mane olmaq və iki qardaş ölkənin coğrafi yaxınlaşmasına əngəl törətməkdir. Həmçinin rəsmi Moskva məhz sülhməramlılar vasitəsilə Ermənistanda Qərbə meyl edən qüvvələrə də lazımi mesaj verir. Yəni əgər Ermənistanda kimsə Rusiya ilə münasibətləri "dondurmağa" və ya "forpostluqdan" yayınmağa cəhd göstərsə, heç bir qüvvə Ermənistanı xilas edə bilməz. Azərbaycanlı qardaşlarımız otuz il dözdülər, həsrət çəkdilər. Düzdür, bugünkü vəziyyət dünənkindən yaxşıdır. Amma sabahın daha yaxşı olması üçün bir az səbr etməliyik. Əlbəttə, növbəti otuz ilə ehtiyac olmaz. Yəqin, ən qısa zamanda sülhməramlılar məsələsi də öz həllini tapar.

**- Bilirsiniz ki, artıq türk-rus birgə monitorinq mərkəzi fəaliyyətə başlayıb. Bunun əhəmiyyətini necə qiymətləndirirsiniz?**

- Bu, hər şeydən əvvəl azərbaycanlı qardaşlarımıza motivasiya və ruh yüksəkliyi verəcək. Daim qardaşlarımızın yanlarında olduğumuz bir daha göstəriləcək. İkinci bir tərəfdən isə, əlbəttə, ruslar "neytrallaşacaq". Əslində məqsəd də budur. Bəzi ekspertlərin fikrincə, Türkiyənin regionda olması həm də İrana mesajdır. Hər halda regional stabilliyin təmin olunması Türkiyəsiz mümkün deyil. Onsuz da Türkiyə və Azərbaycan iki dövlət, bir millətdir.

**- Xankəndi, Xocalı və Əsgəranın taleyi ilə bağlı nə düşünürsünüz?**

- Əslində bayaq Azərbaycanın hələ tam qələbə qazanmadığını deyəndə bunu nəzərdə tuturdum. Hərçənd xarici siyasət məhz belə məqamlardan ötrüdür. Gərək bütün variantları qiymətləndirib, ən düzünü seçəsən. Təkrarlayıram, bugünkü vəziyyət dünənkindən çox yaxşıdır. Azərbaycan Laçın dəhlizindən hərəkətə icazə verərək erməni əhalinin gediş-gəlişinə şərait yaratdı. Şübhəsiz ki, deməli, belə məsləhət olub. Lakin bir neçə gün əvvəl Ermənistan rəsmilərinin Qarabağa gəlməsinə lazımi reaksiyanın verilməsi çox düzgün idi. Çünki Laçın dəhlizindən hərəkətə icazə verilməsinə rəğmən, bəzi adamların, xüsusilə də məmurların regiona gəlməsi üçün sizin icazəniz şərtdir. Axı onlar Qarabağda yaşayan ermənilər deyillər. Azərbaycan vətəndaşları isə sərbəst şəkildə gedib-gəlməlidirlər. Adlarını çəkdiyiniz Xankəndi, Xocalı və Əsgəran da Azərbaycanın ayrılmaz hissələridir. Əgər beynəlxalq hüquqla əksi göstərilmirsə, deməli, istəyən azərbaycanlılar oralara da gedə bilərlər. Hətta Azərbaycandan qanuni icazə almış istənilən xarici ölkə vətəndaşı da Qarabağa, o cümlədən həmin rayonlara səfər etmək iqtidarındadır.

> **"Türkiyənin Qarabağ savaşındakı ən mühüm xidmətlərindən biri İranı məsələlərdən mümkün qədər uzaq saxlamaq oldu"**

**- Bəs Zəngəzur?**

- Bu məsələdə həssas məqamlar çoxdur. Hər şeyin yaxşı olacağına ümid edirəm. Hər halda Zəngəzur dəhlizinin açılması bütün hallarda çox yaxşıdır. Onu da deyim ki, Zəngəzur dəhlizinə çox ciddi nəzarət lazımdır. Çünki Qarabağda hən an təxribata əl atmağa hazır və dəfələrlə terror törətmiş, o cümlədən 20 Yanvar qətliamını bizə yaşadan terrorçular var.

**- Elə isə həmin erməni silahlılarını necə zərərsizləşdirməliyik? Əks halda Qarabağa rahatlıqla getmək mümkün olmayacaq...**

- Düz deyirsiniz. Silahlar mərhələli şəkildə yığılmalıdır. Əgər rus sülhməramlıları özlərini bölgədəki "sülh memarları" kimi göstərirlərsə, həmin silahları da yığmalıdırlar. Sonradan həmin silahların və onların sahiblərinin siyahısı tutulmalıdır. Ardınca isə silahlar ya Azərbaycana, ya da Ermənistana göndərilməlidir. Hər halda Qarabağda bircə nəfər belə olsun, əli silahlı erməni qalmamalıdır. Məntiqli sual yaranır: əgər bölgədə onları müdafiə edən rus sülhməramlıları varsa, yerli insanların silahlanmasına ehtiyac qalırmı? Əlbəttə, yox. Azərbaycanın digər bölgələrində qanunsuz silah daşıyanlar hansı məsuliyyətə cəlb edilirsə, Qarabağdakılar da eyni formada cəzalanmalıdırlar. Onlar təkcə Azərbaycanın yox, həm də Gürcüstanın, Türkiyənin və İranın təhlükəsizliyini təhdid edirlər. Onu da deyim ki, ayrı-ayrı yerlərdən Qarabağa gələn və ermənilər tərəfdən vuruşan terrorçular da Azərbaycan məhkəmələri qarşısında cavab verməlidirlər. Biz Bahçeşehir Universiteti Dənizçilik və Qlobal Strategiyalar Mərkəzi olaraq bu istiqamətdə xeyli iş görmüş və beynəlxalq hüquq pozuntularını dünyaya çatdırmağa çalışmışıq.

**- Ermənistan Baş naziri Nikol Paşinyan yanvarın 11-də Moskvada keçirilən görüşdə məsələnin hələ bitmədiyini dilə gətirib. Sizcə, yeni müharibə başlaya bilər?**

- Ermənistan hərbi-siyasi hakimiyyəti məğlub olduğuna görə kapitulyasiya sənədini imzalamağa məcbur qaldı. Həmin vaxt Paşinyan kameralar qarşısına çıxmamışdı. Əlbəttə, başadüşüləndir. Savaş meydanında uduzanın masada olmasının əhəmiyyəti yoxdur. Bundan cəmi bir neçə həftə sonra Paşinyanın Moskvadakı açıqlaması yersizdir. Əslində onun həmin ifadəsi Qarabağdakı əsirlər və xəyali statusla bağlı idi. Amma əslində Ermənistan baş naziri düz deyir. Məsələ hələ bitməyib. Azərbaycan ən yaxın zamanda Xankəndi, Xocalı və digər ərazilərə də nəzarət edəcək. Çünki oralar bizim torpağımızdır və bu gün işğal altındadır. Bundan sonra heç bir erməni siyasətçi "Hayastan" eşqinə düşərək Azərbaycan və Türkiyə torpaqlarına göz dikməyə cəsarət etməyəcək. Dediyim kimi, Ermənistan uduzdu. Bundan sonrakı potensial müharibədə isə "Böyük Ermənistan" xəyalı yerlə bir olacaq.

**- İran Xarici işlər naziri Cavad Zərifin regiona arda-arda səfərləri nəyə hesablanıb?**

- Ümumiyyətlə, İranın bölgəyə dair maraqları bir çox tarixi faktlara söykənir. Hər şeydən əvvəl İranın Azərbaycana münasibəti bərabərtərəfli dialoq prinsipinə söykənmir. Belə ki, 1828-ci ildə imzalanan Türkmənçay müqaviləsi ilə İran yox, Azərbaycan iki yerə bölünüb. Beləliklə, Azərbaycanın cənub hissəsi indiki İran İslam Respublikasına verilib. Buna rəğmən, Azərbaycan İrana bərabərhüquqlu regional iştirakçı kimi yanaşır. Baxmayaraq ki, Birinci Qarabağ müharibəsində cənub qonşunuzun məhz belə nanəcib reaksiyalarına görə Şuşanı itirmişdiz. Şükürlər olsun, Şuşa, nəhayət, həqiqi sahiblərindədir. İndi cahillər və xainlər Azərbaycanda şiələrin üstünlük təşkil etdiklərini deyirlər. Amma bunun heç bir fərqi yoxdur. Türk türkdür! Göründüyü kimi, həm enerji layihələri, həm də təhlükəsizlik baxımından İran rəsmilərinin mövqeyi Ermənistandan yana olub. İran Türkiyəni özünə regional rəqib kimi görür.

Azərbaycan-Türkiyə münasibətlərinin inkişafı, hətta türk silahlı qüvvələrinin hansısa tədbirlə bağlı ölkənizə səfəri İranda ciddi narazılıqlar yaradır. Narahatlığın əsas səbəbi isə İran azərbaycanlılarında milli şüurun oyanışıdır. Çünki orada yaşayan insanların haqlarına, azadlıqlarına laqeyd yanaşılır. Növbəti məqam isə İranın bütün sanksiyalara rəğmən Ermənistanla ticarət əlaqələridir. Sanksiyalar altında əzilən İran hər nə qədər Türkiyə və digər dövlətlərdən dəstək alsa da, Ermənistan onun iqtisadiyyatı üçün hələ həyati əhəmiyyətlidir.

Türkiyənin Qarabağ savaşındakı ən mühüm xidmətlərindən biri İranı məsələlərdən mümkün qədər uzaq saxlamaq oldu. Həqiqətən də Birinci Qarabağ müharibəsindən fərqli olaraq rəsmi Tehran indi həm hərbi meydanda, həm də diplomatik masada "ofsaytda" qaldı. Türkiyənin regional maraqları baxımından bu, çox vacib idi. İndi bölgədə bir həqiqət var: Türkiyənin dəstəyini alan qələbə qazanacaq!

**- Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın anonsunu verdikləri altılıq platformasına dair fikirləriniz nədir?**

- Haqqında danışılan altılıq platformasının hansı ölkələri əhatə etdiyi məlumdur. Belə bir iş birliyi üçün regional məsələlərə qarşı münasibət çox mühümdür. Bəs bu münasibət necə olacaq? Hər bir ölkənin özünün geosiyasi maraqlarının olduğunu görürük. Əlbəttə, müəyyən ortaq maraqlar istiqamətində birlikdə addımlar atılacaq. Xarici siyasətdə isə ziddiyyətli məqamlar var. Lakin bütün hallarda layihənin faydalı olacağını düşünürəm. Regional iş birliyi və stabillik Türkiyənin xarici siyasətinin təməl xəttidir. Belə layihələrin regional təhlükəsizliyi qoruyacağına şübhə yoxdur. Vaxtı ilə imzalanan Bağdad və Səadəbat paktları da buna misaldır.

**Kənan Novruzov**



**Vətən müharibəsində canla-başla savaşanların sırasında qələm əhli də var idi. Onlar qələmlərini süngüyə dəyişib, Qarabağ naminə qan tökməyə hazır oldular. Daim savaşdıqları söz cəbhəsindən uzaqda, düşmənlə üzbəüz yurdun müdafiəsinə qalxdılar. Onlardan biri də şair, jurnalist, "Ədalət" qəzetinin əməkdaşı Emin Piridir.**

**Həmkarımızla döyüş yolundan, müharibədən danışdıq.**

# "Minamyotu az qala əsgərlərin sayı qədər atırdılar"

## Emin Piri: "Ordan sağ çıxandan sonra dedim ki, daha ölsək də olar, qalsaq da"

**- Müharibəyə könüllümü yollanmışdınız, yoxsa hərbi komissarlıqdan çağırıldınız?**

- Əslində ikisi də eyni sayılır. Yəni könüllü qeydiyyatdan keçəndə də çağırış gözləyirsən. Amma "Tovuz" hadisələri zamanı izdihamlar yaşandı. Mən Sumqayıtda qalıram. General-mayor Polad Həşimovun evi məhəlləmizin yaxınlığında yerləşir. O zaman şəhidlərin dəfnində iştirak etdik. Bir də düşünürəm ki, səfərbərliyə müraciət etmək üçün ortada nə isə olmalıdır. Məsələn, 1994-cü ildən bu günə Aprel döyüşlərini çıxmaq şərtilə belə bir münaqişə baş verməmişdi. Bu da 2020-ci ilə təsadüf etdi. Mən də sentyabrın 25-də hərbi komissarlığa gedib, müraciət etdim. Taleh elə gətirdi ki, 2 gün sonra müharibə başladı, 28-də çağırış gəldi.

**- Yola düşəndə kiminlə halallaşdınız?**

- Bilirsiz ki, "Ədalət" qəzetində çalışıram. Müharibə başlayan ərəfə gərgin iş şəraiti mövcud idi. Bazar günü də işdəydik. Sentyabrın 28-i də işə çıxıdıq, müharibə ilə bağlı, təbliğat xarakterli yazılar yazdıq. 28-i günorta saatlarında komissarlıqdan zəng gəldi. Hallalaşıb, görüşdüyüm də elə jurnalist dostlarım oldu. Yeni Azərbaycan nəşriyyatından sağollaşıb, çıxdım. Sonra evə getdim, ailəmlə vidalaşdım, səhər tezdən yollandım. Təbii ki, statusumu görəndən sonra zəng edənlər də oldu.

**- Hər halda əvvəlcə təlimdən keçdiniz...**

- Bəli. Bir neçə gün Bakıda təlimdə olduq. Bu da qısa bir müddəti əhatə etdi.

**- Bəs döyüş yolunuz hardan başladı?**

- Oktyabrın əvvəlində ilk dəfə Füzuli-Cəbrayıl istiqamətində irəlilədik. Rayon deyəndə kəndləri nəzərdə tuturam. Çünki əsasən döyüşlər kəndlərdə gedirdi. Daha sonra Xocavənd və Hadrut qəsəbəsi ətrafında olduq. Oktyabrın axırı, noyabrın əvvəli isə Şuşanın mühasirəyə alınmasında, mövqelərin tutulmasında iştirak etdik. Müharibə bitdikdən sonra toplanış yerinə göndərildik. Məlumdur ki, Laçını müqaviləyə əsasən qaytardılar. Bir neçə gün də Laçında da qaldıq. Yeni ildə də tərxis olundum.

**- Nə kimi çətinlikləriniz oldu?**

-Müharibə haqqında filmlərə baxıb, yazılar oxuyursan, amma onu yaşamadan duya bilmirsən. Məsələn, düşünürsən ki, ərzaq, su təminatı gələcək. Təminat da gəlib çata bilmir. Onu da deyim ki, müharibə zamanı Azərbaycan xalqının dəstəyi, göndərdiyi paylar danılmazdır. Geyimdən, ərzağa qədər hər şey yollayırdılar. Lakin bəzən elə stiuasiya yaranırdı ki, göndərilsə belə gətirmək mümkün olmurdu. Ya ermənilər həmin ərazini vururdu, ya da başqa problemlər olurdu. İki-üç gün bir mövqedə, misal üçün, Füzulidə suyun çatdırılması mümkün deyildi. Hava şəraiti də müəyyən çətinliklər yaradırdı. Oktyabrın əvvəlləri hava isti idi. Füzuli də Qarabağın aran torpaqlarıdır. Günorta dəhşətli istilər olur, gecələr də soyuq. Bunun özü bir çətinlikdir. Xocalı, Şuşa ətraflarının şaxtasından danışmaq da absurddur. Çünki həmin yüksəkliklərin çoxu noyabrın əvvəlindən buzlaşmağa başlayır. Müharibədə ölüb, yaralana bilərsən, bunlara çətinlik deməzdim. Müharibənin reallığıdır. Axı savaşa gedirsən, piknikə yox. Mərmi yerinə çay göndərəsi deyildilər *(gülür)*.

**- Yəqin ki, silahdaşalrınızdan yanınızda şəhadətə ucalanlar, yaralananlar olurdu...**

- Adətən müharibədə bölgü kimi batalyon adı məşhurdur. Batalyonda şəhidlərimiz oldu, xeyli sayda yaralananlar var idi. Füzuli və Cəbrayılda minamyot yağışının altında şəhid və yaralıları çıxartdıq. İndi rahat danışıram, çünki adi gəlir. Təbii ki, ilk dəfə qanı, yaralını görəndə insan özünü itirə bilir. Zaman keçdikcə, sanki belə olmalıymış kimi hiss edirsən. Acı reallıqdır.

**- Ölümü lap yaxında hiss etdiyiniz bir anınız oldumu?**

- Erməni qoşunlarının artilleryası, texnikaları var idi. Füzuli və Cəbrayıl onların yarılma nöqtəsi olduğu üçün daha çox müqavimət göstərirdilər. Xüsusilə də minamyotu az qala əsgər sayına qədər atırdılar. Ordan sağ çıxandan sonra dedim ki, daha ölsək də, qalsaq da olar. Amma bir hadisəni danışım. Xocalıya bir neçə maşınla gedirdik. Bizdən əvvəlki maşında əsgərlər var idi. Minamyot atəşinə düşdülər, şəhid oldular. Ən çox qorxduğum isə əsirlik idi. Digərləri müharibənin ikinci, üçüncü dərəcəli çətinliyi kimi görünürdü.



**"Müharibədə adi su daşıyandan, sürücüsünə kimi qəhrəmanlıq göstərib"**

**- Düşmənlə əlbəyaxa döyüşləriniz oldumu?**

- Hər şeyi olduğu kimi demək lazımdır. Xüsusilə də bir məsələyə toxunmaq istərdim. Hansısa müharibə iştirakçısının savad baxımından çatışmazlığı ola bilər, ya da fikrini ifadə etməkdə çətinlik çəkər. Ona görə jurnalistlər də diqqət etməlidir. Onlar bəzən elə açıqlamalar verirlər ki, gülməli görünür, yaxud da absurd səslənir. Hər şeyi olduğu kimi danışmağın özü qəhrəmanlıqdır. Müharibədə adi su daşıyandan, sürücüsünə kimi qəhrəmanlıq göstərib. Deyim ki, erməni ilə əlbəyaxa döyüşməmişəm, yalan olar. Hər kəsin öz missiyası var. Topçudan soruşsan ki, neçə erməni öldürmüsüz? Bu, absurddur. Topçu əlbəyaxa döyüşə girmir, sadəcə koordinatlarla hədəfi vurur. Bizdə yalnız Xüsusi Təyinatlılar elə savaşıb. Təbii ki, erməninin ölüsünü də, dirisini də görmüşük. Amma yumruq davasına çıxmamışam. Desəm, kiminsə haqqına girmiş olaram.

**"Erməninin ölüsünü də, dirisini də görmüşük. Amma yumruq davasına çıxmamışam. Desəm, kiminsə haqqına girmiş olaram"**

**- Düşmənin əsgərlərini zəncirlədiklərini, qaçmaqlarının qarşısını aldıqlarını gördük. Siz də belə hallarla qarşılaşırdınız mı?**

- Ən çox erməni hərbi formaları ilə rastlaşırdıq. Hər mövqedə var idi. Qəribə gəlirdi ki, hərbi formanın şalvarına qədər çıxarıb atıb. Sonradan məlum oldu ki, ermənilərdən arxa tərəfdə fərariləri saxlamaq üçün polislər dayanırmış. Bunlar da hərbi formaları çıxarıb, mülki geyimlə qaçırdılar ki, saxlanılmasınlar. Tutulsalar ya müharibəyə qaytarılacaq, ya da həbs olunacaqdılar.

**- Müharibə xatirələrinizdən şeir, ya da esse yazmısınızmı?**

- Qeydlərim çoxdur. İnsanlara bir ay çox görünə bilər. Amma hiss edirəm ki, adaptasiya ilə bağlı problemim var. Mülki əhali artıq 10 noyabrdan müharibənin bitdiyinə alışıb. Mən hələ indi qələbənin həzzini yaşamağa başlamışam. Əlbəttə, qaralamalarım var. Çoxunu gələndən sonra vərəqə köçürmüşəm. Yavaş-yavaş köşə yazısı, esse kimi "Ədalət" qəzetində də, digər ədəbiyyat dərgilərində də yayımlanacaq. Şeirlərim də olacaq.

**- Savaş sizə nələr öyrətdi?**

- Nəzəri cəhətdən həyatın şirinliyini, azadlığın gözəlliyini bilirik. Bir də əyani şəkildə bundan əmin olmaq var. Dünyada azadlıqdan önəmli bir şey yoxdur. Həm şəxs, həm vətən, həm də dövlət üçün hürriyyət gözəldir. Mən azadlığın ən şirin nemət olduğunu öyrəndim. Zəifliyin isə iyrəncliyini anladım. Eyni zamanda gündəlik həyatın ləzzətini duydum. Evə gəlib, yorğan-döşəkdə yatanda özümü o qədər xoşbəxt hiss etdim ki... Həm də nəyəsə dəyərindən artıq bağlanmağın önəmi yoxdur.

Bunu dərk edirsən. Bu gün sənə məxsus olan, sabah sənin olmaya bilər. Məsələn, Qarabağ dünən ermənilərdə idi, bu gün bizdə. Onların ən yüksək rütbəli hərbçiləri müharibədə məhv oldular. Əmrində minlərlə əsgər olan generalları var idi, bir dəmir parçası ilə yoxa çıxdı. Deməli, həyat fanidir.

**- Mühairbənin psixoloji durumunuza hansı təsirləri olub?**

- Məndə hələ yaxşıdır. Müharibə iştirakçılarından bir istiqamətdə çalışanlar var. Məsələn, mən həm şairəm, həm jurnalist, həm də müəllim. Auditoriyam genişdir, birində sıxılanda, digərində təsəlli tapıram. Amma hər kəsdə belə deyil. Elə insanlar var, onun üçün bu problemlər dəhşət vericidir. Siz də bilirsiniz, nə qədər intihar edən müharibə iştirakçısı oldu. Hələ bunlar bizim gördüklərimizdir. Mən gələn kimi psixolojli sağlamlığım üçün dərmanlar qəbul etdim, əlavə müalicələr aldım. Ona görə ciddi problemim yoxdur. Bilmirəm özümdən çıxsam, hansı hala düşərəm. Belə bir vəziyyət olmadığı üçün demək çətindir.

**- Bir az da ordudakı ruh yüksəkliyindən danışaq. Orda abhava necə idi?**

- Normal insan ruh yüksəkliyini aşağı salsa problem ola bilərdi. Sən zatən savaşdasan, könüllü, ya könülsüz, fərq etmir. Əksinə, ruh düşkünlüyü ilə iki-üç tərəfli özünü psixoloji məğlüb edə bilərdin. İstər zarafatlarla, istərsə də bir-birinə dəstəklə güclənməkdən başqa çarə yox idi. Həm də bu, ürəkdən gələn məsələ idi. Əksi olsa, daha pis vəziyyətlə üzləşə bilərdin.

**- Siz müharibədə olanda qələm dostlarınız haqqınızda zarafatla qarışıq statuslar yazırdılar. Məsələn, çox danışdığınızı deyirdilər. Orda danışmağa fürsətiniz olurdumu?**



- Orda elə bir kontaktım görülmürdü. Amma insanlar bir şeyi unudurlar ki, mən həm də müəlliməm. Yəni şagirdlərlə çox danışıram. Bundan da əlavə media işçisiyəm. İkisi üst-üsə gələndə müəyyən mənada çox danışan kimi görünürəm. Bəzən də sakit deyənlər olur. Baxır düşdüyüm mühitə, yəni səmimi, doğma, müsbət enerji aldığım insanların yanında çox danışıram *(gülümsəyir)*.

**- Bir paylaşımınızı gördüm. Adınızı, soyadınızı və yaxınınızın nömrəsini yazıb boş patrona qoyub döyüşə elə girmisiniz...**

- Bu tək mənlə bağlı deyil. Bizə atılmış güllə verirdilər. Orda adsoyad və yaxın adamının əlaqə nömrəsini yazırsan. Müasir müharibədə artilleriya döyüşləri getdiyinə görə, insanın bədəni parçalara ayrıla bilər. O güllənin içindən çıxarılmış kağızın hesabına, nəşin kimə aid olduğu tapılır. Düzü, çoxu bilmirdi. Məsələn, əsgərlərim var idi. Deyirdilər ki, bu nə üçündür? Adam bilmir ki, məsələni necə izah etsin.

**- Deyəsən, müharibədə rütbəniz də olub.**

- 2008-2010-cu illərdə Ağdamda tağım komandiri kimi xidmət etmişəm. Orduda daimi işçi deyildim. Müharibədə də baş leytenant rütbəsi verildi.

**- Son olaraq müharibədə ən yadda qalan bir anınızı bölüşə bilərsinizmi...**

- Ən yadımdan çıxmayan Xocalının kəndlərində olub. Xocalıda olmaq bir başqa mənə daşıyırdı. Biz uşaqlığımızdan görmüşük ki, yaşıdlarımıza qarşı orda qətliam törədilib.

**Samirə Ərəbova**

# Müəmmalı qətlin detalları aydınlaşır

## Nərminin atası daha susmayacaq, danışacaq

**2020-ci ilin 6 yanvar tarixində Tovuzda azyaşlı qızın yanmış cəsədi ilə bağlı yayılan xəbərlər medianın uzun müddət gündəmini zəbt etmişdi. Rayonun Dondar Quşçu kəndindən olan 10 yaşlı Nərmin Quliyevanın müəmma dolu qətli ölkəni silkələdi. Müxtəlif fikir və mülahizələr irəli sürüldü. Lakin Nərminin qətlində kənd sakini İlkin Süleymanov ittiham olunaraq həbs edildi.**



**"Allaha and olsun ki, qızımın ölümündən sonra nə ev, nə də pul veriblər. Kim istəyir gəlib baxsın və belə bir halın olub-olmadığını araşdırsın"**

İ.Süleymanovun ailəsi isə cinayət ittihamlarını qəbul etmir. Bundan başqa, Nərminin valideynlərinin susqunluğu da diqqətləri özünə çəkməmiş deyil. Hətta bəzi iddialar səsləndi ki, Nərminin valideynləri müəyyən məqamları ört-basdır etmək üçün açıqlama vermirlər.

N.Quliyevanın atası Şərif Quliyev səslənən iddialarla bağlı "Şərq"in suallarını cavablandırıb:

**- Həyat yoldaşınız Aynurə İsmayılova və sizin mətbuata açıqlama verməməyiniz müəyyən şübhələrə yol açıb. Nə üçün açıqlama vermirdiniz?**

- Heç vaxt nələrisə danışmaqdan qaçmamışam. Mən prokuror deyiləm ki, çıxıb öz-özümə açıqlama verim. Kim istəyirsə, gəlib müsahibə götürsün ki, mən də danışım. Mətbuata bütün informasiyaları verməliyik. Bundan nə zamansa boyun qaçırmamışam.

**- Qızınızın qətli ilə bağlı hələ də qaranlıq qalan sualların olduğu bildirilir. Sizcə, İlkin həqiqətən də qatildir?**

- Bəli. Qızımı öldürən İlkin və onun ətrafıdır. Sadəcə İlkini qabağa veriblər. Əmisi və qardaşı müxtəlif kanallarda çıxış edirlər, deyirlər ki, onları işdən çıxardıblar. Onlar İlkin barədə düşünmürlər, ancaq öz işləri ilə maraqlanırlar.

**- Bəzi iddialar səsləndirildi ki, Nərminin ailəsinə Bakıda ev veriblər. Məhz bunun üçün də susurlar...**

- Belə bir şey olmayıb, ola da bilməz. Allaha and olsun ki, qızımın ölümündən sonra nə ev, nə də pul veriblər. Kim istəyir gəlib baxsın və belə bir halın olub-olmadığını araşdırsın.

**- Yoldaşınız Aynurə xanım indi necədir?**

- Övladını itirən ana necədirsə elədir... Məhkəmə "COVİD 19"a görə fevralın 13-nə təxirə salınıb. Nə edə bilərik ki? Dövlətimiz nə deyirsə, ona da inanırıq.

**- Yoldaşınız bu məşum hadisədən sonra bildirmişdi ki, digər övladlarınızın təhlükəsizliyi üçün çox qorxur. Yenə Tovuzda həminki evinizdəmi yaşayırsınız?**

- Bəli. Heç yerə getməmişik. Uşaqlar da evdədir, onlayn formada dərs keçirlər. Kimdən istəsəniz, öyrənə bilərsiniz.

**- Nərminin qətlə yetirilməzdən öncə hamilə olmasına dair iddialar dolaşır...**

- İlkinin qardaşı və 70 yaşlı əmisi qızımın hamilə olduğunu deyirlər. Onlara şər atmaq yaraşırmı? İlkinin qardaşı, əmisi Süleyman Süleymanov və əmisi oğlu Tariyel Süleymanov Nərminə bala deyirlər, sonra da hamiləlik iddiasını ortalığa atırlar. Bu mövzuya qədər mən onlara nəsə deməmişdim. Amma daha susmayacağam. Heç zaman da mətbuatdan qaçmamışam.

**Söhbətləşdi: Yeganə Bayramova**

## Şuşada gözlərini və ayağını itirdi

### Qazimiz qazandıqlarımızın qarşılığında bunu çox cüzi itki sayır




**İkinci Qarabağ müharibəsinin ən mühüm nəticələrindən biri də Azərbaycan xalqının daxilindəki hərbi-vətənpərvərlik ruhunun növbəti dəfə bütün dünyaya nümayiş etdirilməsi oldu.**



Oğullarımızın şücaəti, igidlikləri indi dillərdə dastandır. **Onlardan biri də 1998-ci il təvəllüdlü Saməddin Əhmədovdur. Saməddin orta məktəbi bitirdikdən sonra 2016-cı ildə hərbi xidmətə yollanıb. Lakin özünün "Şərq"ə dediyi kimi, bundan sonra həyatını tamamilə hərbiyə bağlayıb:** "Vətənə borcumu yerinə yetirdikdən sonra MAXE kurslarına yazıldım. Beləliklə, hərbi xidmətimi davam etdirdim. İş elə gətirdi ki, mən İkinci Qarabağ müharibəsinin iştirakçısına çevrildim. Şuşayadək gedib çıxdıq.

Şuşanı görmək özü böyük xoşbəxtlikdir. Oktyabrın 4-də orada qoşa minaya düşdüm və ordudan tərxis olundum. Sol ayağım tamamilə və sağ ayağımın iki barmağı amputasiya olunub.

Gözlərimi itirmişəm. Amma qazandığımız qarşılığında bu, çox cüzidir. Lazım olsa, torpaqlarımız uğrunda canımdan da keçməyə hazıram".

**Kənan**

## Koronavirusa yoluxma sayı ikirəqəmliyə düşdü

### Xəstəlikdən sağalma sayı da yoluxanları iki dəfə üstələyir




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 77 yeni yoluxma faktı qeydə alınıb, 160 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 4 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 230 296 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 223 475 nəfər müalicə olunaraq sağalıb, 3 136 nəfər vəfat edib, aktiv xəstə sayı 3 685 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 3 984, ötən müddət ərzində isə ümumilikdə 2 412 034 test aparılıb.

## Metroda gediş haqları artırılırmı?

### Qurum sözçüsü nə "hə" deyir, nə də "yox"

**"Bakı Metropoliteni" QSC-nin gediş haqlarının artırılması ilə bağlı Tarif Şurasına müraciəti barədə məlumatım yoxdur".**

Bu sözləri, "Şərq"ə açıqlamasında qurumun mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Bəxtiyar Məmmədov deyib. O, hazırda məzuniyyətdə olduğunu bildirib: "Sabah bu barədə açıqlama verə bilərəm. Lakin hələ gedişatla bağlı məlumatım yoxdur".

**Aygün**

## "Prezidentdən xahiş etmişik ki, Tarif Şurasının qərarını ləğv etsin"

### Sərdar Cəlaloğlu: "Əslində bütün bunlar daxildəki "beşinci kolon"un işidir"



**"Çox qəribədir ki, dövlət gəlirləri artdıqca vətəndaşların həyat şəraiti də ağırlaşır"**

Bilindiyi kimi, iki böyük qurum - Mərkəzi Bank və "Azərsu" Açıq Səhmdar Cəmiyyəti özlərinə yeni bina tikməyi qərara alıblar. Özü də nə bina... Məsələn, Mərkəzi Bankın yeni binasının maya dəyəri 218 milyon avrodur. Xeyirdimi?! Bu qədər pula şəhid ailələrinə, qazilərə və kasıb təbəqəyə xeyli dəstək göstərmək olar axı... Hələ bu azmış kimi, "Azərsu" da eyni həvəsə düşüb və qərarından dərhal sonra suyun qiyməti yüz faiz bahalaşdı.

"Azərsu" ASC-nin İqtisadi təhlil və proqnozlaşdırma şöbəsinin rəisi Elçin Camalov isə bildirib ki, suyun qiymətinin bahalaşmasının bu məsələyə heç bir aidiyyəti yoxdur. "Bu tikintidə xərclənən 1 manat belə qurumun tariflərində mövcud deyil. Bu fikir yanlışdır, tariflərin artırılmasını bu məsələ ilə izah etmək doğru deyil"- deyə o bildirib. Elə isə olmaz olsun belə təsadüf...

**Azərbaycan Demokratik Partiyasının sədri Sərdar Cəlaloğlu "Şərq"ə açıqlamasında bahalı binaların tikilməsinə münasibət bildirib:** "Nə ehtiyac var axı?! Cah-cəlal, bər-bəzək nə mənaya gəlir?! Nə deməkdir?! Üstəgəl, unutmayaq ki, tikinti sektoru ən böyük korrupsiya mənbəyidir. Qaçqın və köçkünlər Qarabağa yerləşəndən sonra xeyli boş bina qalacaq. Həmin tikililərdə hər iki qurumun əməkdaşları üçün ofis yaratmaq mümkündür. Çox qəribədir ki, dövlət gəlirləri artdıqca vətəndaşların həyat şəraiti də ağırlaşır".

**S.Cəlaloğlu, həmçinin Tarif Şurasının yeni qərarını tənqid edib:** "Su yaşayış üçün ən vacib nemətdir. Deməli, indi pulu olmayan susuzluqdan ölməlidir?! Bu nə məntiq, bu nə ritorikadır?! Əgər bina tikmək istəyirlərsə, onda özləri qənaət etsinlər. Əslində indiki məqamda su pulsuz olmalı və su idarəsinin xərclərini dövlət qarşılamalıdır. Xüsusilə nəzərə almalıyıq ki, Qarabağ azad olunandan sonra suya olan tələbatımızın ödənməsində yeni perspektivlər açılıb. Belə getsə, bir azdan havanı da pullu edəcəklər...Biz məsələ ilə bağlı Prezidentdən Tarif Şurasının qərarının ləğv olunmasını xahiş etmişik. Əslində bütün bunlar daxildəki "beşinci kolon"un işidir. Onlar vətəndaşlarda hökumətə qarşı etimadsızlıq yaratmaq, daxili sabitliyi pozmaq və Qarabağ problemini unutdurmaq istəyirlər.

Hərçənd, Qarabağ məsələsi hələ tam həllini tapmayıb. Müharibə hər an yenidən başlana bilər".

**Kənan Novruzov**

# Sülhün dayanıqlığı bir az da möhkəmləndi

## Qarabağda yeni hərbi, siyasi reallıqlar yaranıb




Ağdamda Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin yaradılması təkcə Qarabağda deyil, ümumilikdə Cənubi Qafqaz regionunda sülh və əmin-amanlığın bərqərar olunması, eləcə də region ölkələri arasında qarşılıqlı əməkdaşlıq perspektivlərinin reallaşması baxımından böyük əhəmiyyət kəsb edir.

Politoloq Nurlan Qələndərli də "Şərq"ə açıqlamasında bildirib ki, Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyətə başlaması regionda uzunmüddətli təhlükəsizliyin təmin olunması baxımından mühüm əhəmiyyətə malikdir. Politoloq qeyd edib ki, effektiv nəzarət mexanizmi rolunu oynayan Mərkəzin funksiyalarına atəşkəs rejiminə əməl olunmasına nəzarət etmək, bu barədə məlumatlar və faktları toplamaq, problemləri araşdırmaq, atəşkəsin qorunması ilə bağlı birgə tədbirlər görmək məsələləri daxildir: "Şübhəsiz ki, bu istiqamətlər üzrə səmərəli fəaliyyətin təşkil olunması sabitliyin qorunması kimi strateji hədəfə nail olmağa imkan verməklə yanaşı, bölgədə gələcək əməkdaşlıq üçün etibarlı zəmin və yeni perspektivlər yaradacaq. Bu günləri dostluq, qardaşlıq və strateji tərəfdaşlığa əsaslanan Türkiyə-Azərbaycan münasibətlərinin ən yüksək zirvədə olması reallıqdır.

Azərbaycan-Türkiyə hərbi və hərbi-texniki əməkdaşlığının möhkəmlənməsi, inkişafı da daim diqqət mərkəzindədir. Bütövlükdə, iki ölkə arasında çoxşaxəli əməkdaşlıq həm regional, həm də beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsinə fundamental töhfədir. Türkiyə hərbçilərinin azad olunmuş ərazilərdə xidmətə başlaması

### Monitorinq Mərkəzi rus sülhməramlılarının addımlarına da nəzarəti artıracaq

Vətən müharibəsində qələbə qazanmış Azərbaycanın yeni geosiyasi reallıqlar yaratması nəticəsində mümkün olub. Ümumiyyətlə, Azərbaycan-Türkiyə tərəfdaşlığı Cənubi Qafqaz bölgəsində həm sabitlik və təhlükəsizlik, həm də dayanıqlı regional inkişaf üçün müstəsna əhəmiyyətə malikdir". **Politoloq Tural İsmayılov "Şərq" açıqlamasında qeyd edib ki, Türkiyə hərbçilərinin azad olunmuş ərazilərdə xidmətə başlaması regionda yaranmış yeni geosiyasi reallığın nəticəsidir:** "Bu reallığı Azərbaycan Prezidentinin qətiyyətli siyasəti, Azərbaycan-Türkiyə tərəfdaşlığı yaratdı. Bu tərəfdaşlıq Cənubi Qafqazın sabitliyi, təhlükəsizliyi və davamlı inkişafı üçün böyük önəm kəsb edir. İki ölkə arasındakı bağlar və siyasi müttəfiqlik təkcə iki xalqa deyil, bütövlükdə regionun taleyinə təsir göstərir. Azərbaycan rəhbərliyinin dəqiq siyasi konturları ilə Türkiyə bu gün Qarabağdakı proseslərin fəal iştirakçısıdır. Nəticədə əgər Ermənistan rəhbərliyi danışıqlar prosesi ilə qane olmayıb yenə təxribatlar edəcəksə, təkcə iki ölkəyə qarşı deyil, həm də Rusiya və İrana qarşı getmiş olacaq". Siyasi-şərhçi Xəyal Bəşirov "Şərq"ə açıqlamasında deyib ki, ilk olaraq bu Mərkəz təyinatından da göründüyü kimi sülhə və təhlükəsizliyə riayət edilməsi məqsədilə yaradılır: "Regionda işğala son qoyan Azərbaycan üçün hazırda ən önəmli məsələ sülh və təhlükəsizlikdir. Buradan aydın olur ki, həmin mərkəz, əsasən sülhə təhlükə olan ermənilərin fəaliyyətinə nəzarət edəcək. Elə Ermənistanın narahatçılığının arxasında duran əsas amil də budur. Digər tərəfdən bu mərkəz məntiqlə regionda sülhməramlı missiyasını üstlənmiş Rusiyanın da maraqlarına uyğundur. Çünki 10 noyabrdan başlayaraq erməni tərəfinin müxtəlif təxribat xarakterli ərköyünlüklərinə son vermək tələbi üçün rus hərbçilərinə ciddi əsas verəcək. Artıq ruslar ermənilərin kaprizlərinə son qoymaq üçün türk faktorundan istifadə edəcəklər. Eyni zamanda, o ərazilərdə hələ də gizlənmiş erməni terrorçularının tərksilah edilməsi və qarşı tərəfə həmin şəxslərə hərbi əsir adını vermək cəhdləri alınmayacaq. Çünki artıq bu prosesə dördüncü tərəf də nəzarət edəcək".

*Politoloq əlavə edib ki, Mərkəz həm də rus sülhməramlılarının zaman-zaman bizi təəssüfləndirən bəzi addımlarına nəzarət ilə bağlı da mühüm əhəmiyyət daşıyır:* "Yəni daha sülhməramlılar xəritə çəkmək və əsassız toponimlər kəşf etməklə deyil, mövcud qanuni xəritələr əsasında öz missiyalarını həyata keçirəcəklər. Qeyd edim ki, bu mərkəz Rusiyanın digər yerlərdəki sülhməramlı missiyalarından fərqlənəcək. Həm də bu mərkəzdə fəaliyyət göstərəcək türk hərbçilərinin ora gəlməsi ilə, yüz il sonra Türkiyə yenidən Cənubi Qafqaza daxil olur. Bununla da, regionda yeni bir tarixi prosesin əsası qoyulur".

**Aynurə Pənahqızı**



## Sosial narazılıqlar Putini zəiflədəcək

### Hakimiyyət daxilində də parçalanmalar gözlənilir

**Rusiyadakı etiraz aksiyaları səngiməyib.**

Paytaxt Moskvada və digər böyük şəhərlərdə mitinqlər keçirilib. Aksiya iştirakçılarının polis tərəfindən saxlanması və həbsi davam edir. Etiraz aksiyalarının polis tərəfindən dağıdılması zamanı həbs olunmuş iştirakçıların sayına görə yanvarın 31-də rekord vurulub - 4567 nəfər saxlanılıb.

**"Tolerantlıq" Sosial Araşdırmalar İctimai Birliyinin sədri, politoloq Azər Rəşidoğlunun "Şərq"ə açıqlamasına görə, Rusiyada sosial narazılığın genişlənməsinə rəğmən, Putin hakimiyyəti hələ də güclüdür:** "Putin iqtidarı narazılıqları önləmək üçün rəqiblərinə qarşı təzyiqlərə əl atır. Bu təzyiqlər Putinin hakimiyyətini zəiflədir. Dərinləşən böhran Kremldən təcili islahatlar tələb edir. Lakin bu proses illərlə uzana da bilər.

Rusiya hakimiyyəti MDB məkanında, Yaxın Şərqdə uğurlar qazanmağa çalışır və düşünür ki, bununla sosial narazılıqlardan diqqəti yayındıra biləcək.

Digər tərəfdən, Co Bayden artıq ABŞ prezidenti kimi fəaliyyətə başlayıb və onun üçün prioritet Putin iqtidarını zəiflətməkdir. Artıq Putinin ətrafına qarşı sanksiyalar tətbiq edilib və bu, artan xətt üzrə inkişaf edəcək". Politoloq vurğulayıb ki, Putin narazılıqları zor gücünə yatırmaq əvəzinə, narazılarla dil tapmağa çalışmalıdır:

"Əks təqdirdə, onun öz komandası daxilində parçalanma ola bilər. Düşünürəm ki, Putinin əsas rəqibi elə indi hakimiyyətdə təmsil olunanlar arasındadır. Navalnı ciddi siyasi sima deyil, sadəcə, narazılıqları simvolizə edə bilir".

**Yeganə Bayramova**

## Co Bayden postsovet ölkələrini Rusiyanın caynağından qurtarmağa çalışacaq

### Məhəmməd Əsədullazadə: "Rusiya və ABŞ arasında qarşıdakı 4 il ərzində ciddi maraq toqquşmasının şahidi olacağıq"



**ABŞ Prezidenti Co Bayden postsovet ölkələrini Rusiyadan qoparmaq üçün səylərini aktivləşdirir. Bunu rusiyalı senator Aleksey Puşkov deyib.**

Onun sözlərinə görə, Vaşinqtonun diqqət mərkəzinə, xüsusilə, Belarus, Özbəkistan, Ermənistan və Qazaxıstan düşəcək: "Bu, qarşımıza müttəfiqlərimiz olan ölkələrdə öz təsirimizin saxlanılması üçün yeni hədəflər qoyur". Puşkov Vaşinqtonun Kiyevlə hərbi tərəfdaşlığı gücləndirəcəyini bildirib. Senatorun fikrincə, Ukrayna ərazisində Amerikanın hərbi deniz bazaları peyda olacaq. ABŞ-ın Ukraynaya hücum silahları verəcəyini iddia edən Puşkov Vaşinqtonun Kiyevi aktiv şəkildə Qərb hərbi strukturlarına inteqrasiya edərək, NATO-nun qeyri-rəsmi üzvünə çevirəcəyini bildirib. **Mövzu ilə bağlı politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə açıqlamasında bildirib ki, ABŞ-da demokratların namizədi Co Baydenin hakimiyyətə gəlişi beynəlxalq münasibətlər sistemində Vaşinqtonun rolunu artıracaq:** "Hesab edirəm ki, bununla yanaşı Rusiyaya qarşı sanksiyaların tətbiq edilməsi gündəmdədir. Şübhəsiz ki, Co Bayden Rusiyanın fövqəldövlət planının qarşısını almaq üçün Rusiya perferiyasında olan ölkələrlə sıx əməkdaşlıq edəcək. Həmçinin onun Mərkəzi Asiya və Ermənistanla bağlı ciddi planlarının olduğunu düşünürəm. O, ilk növbədə bu ölkələrdə Rusiyanın təsirini azaltmaq üçün çalışacaq, Belarusda da həmçinin. Azərbaycana gəldikdə isə Azərbaycan müstəqil ölkədir və Türkiyə ilə artıq kordinasiyalı fəaliyyət göstərir. ABŞ-la Azərbaycan özü birbaşa əlaqələrə malikdir. Düşünürəm ki, Rusiya və ABŞ arasında biz qarşıdakı 4 il ərzində ciddi maraq toqquşmasının şahidi olacağıq".

**Aynurə**

## Rusiyanın Qarabağda "əl-qolu bağlanır"

### "Rəsmi Moskva bundan sonra addım atmazdan əvvəl iki dəfə düşünəcək"

Qarabağdakı türk-rus birgə Monitorinq Mərkəzi artıq fəaliyyətə başlayıb. Birgə Mərkəzin türkiyəli şəxsi heyətinə general-mayor Abdullah Katırcı, rusiyalı şəxsi heyətinə isə general-mayor Viktor Fedorenko rəhbərlik edir. İşğaldan azad edilən Ağdam rayonunun ərazisində inşa edilmiş Mərkəzin əsas məqsədi üçtərəfli bəyanatın bəndlərinin və əldə olunmuş razılaşmaların yerinə yetirilməsinə nəzarət etməkdir. Əlbəttə, bu, bizim nigaranlıqlarımıza son qoyur. Bundan sonra rahat nəfəs ala bilərik.

**Ehtiyatda olan türk general Osman Qazi Kandemir birgə Monitorinq Mərkəzinə dair "Şərq"ə danışıb. O, bu əlamətdar hadisənin əhəmiyyətini bir neçə cəhətdən qiymətləndirib:** "Bildiyiniz kimi, 10 noyabr bəyanatının şərtlərinə görə, rus sülhməramlıları 5 illik müddətində Qarabağda olmalıdırlar. Amma həmin sənəddə türk hərbçiləri barədə heç bir müddəa yox idi. Sonradan Türkiyə, Azərbaycan və Rusiyanın müzakirələri nəticəsində bizim hərbçilərin də atəşkəsə nəzarət etməsi barədə qərar qəbul edildi. Beləliklə, ilk növbədə sovet dövründən qalmış problemlər həllini tapacaq. İkinci bir tərəfdən isə bildiyiniz kimi, Türkiyə ilk gündən etibarən Azərbaycana dəstək olacağını, lazım gələrsə, müharibənin fəal iştirakçısına çevrildiyini demişdi. Ona görə Monitorinq Mərkəzində yer alacağımız gözlənilmirdi. Lakin biz qətiyyət göstərdik". O.Q.Kandemirin fikrincə, Rusiya bundan sonra addım atmazdan əvvəl iki dəfə düşünəcək: "Nəticədə Rusiyanın potensial təxribatlarının, dekonstruktiv siyasətinin qarşısı alındı. İkincisi, Türkiyə Cənubi Qafqaza gəldi. Həm də bu, Azərbaycana mənəvi dəstəkdir. İndi rəsmi Bakıda özünəinam yaranacaq. Biz yalnız 100 il əvvəl - hələ Nuru Paşa dövründə sizə lazımi dəstək ola bilmişdik. 1992-1993-cü illərdə isə istədiyimiz qədər kömək göstərməyi bacarmadıq. Fəqət, artıq birlikdəyik. Odur ki, mən Monitorinq Mərkəzinin yarandığı günü tarixi gün hesab edirəm. Mövcud problemlər addım-addım həllini tapacaq. Rusiyanın Qarabağda olduğu beş il müddətində Azərbaycan da öz hazırlıq işlərini tamamlayacaq".




**Kənan Novruzov**

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi



# Xarici media əlaqələrinə önəm verilməlidir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## "Beynəlxalq media əlaqələrinin qurulması və inkişafı Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında mühüm vasitədir"

Müasir silahlı konfliktlərdə informasiya sahəsində qarşıdurma döyüş bölgəsindəki qədər vacibdir. Bu günləri qlobal informasiya müharibəsinin gedişində xaricidilli medianın üzərinə çox böyük yük düşür. Çünki düşmən qüvvələrə qarşı informasiya müharibəsi aparmaq və həmin qüvvələri elə yerindəcə əsaslı faktlarla susdurmaq üçün məhz xaricidilli mediaya ehtiyac var.

Bütün bunlar nəzərə alınaraq ölkəmizdə ana dilimizlə yanaşı, bir neçə xarici dildə yayımlanan media qurumlarının yaradılmasına xüsusi diqqət ayrılır. Əvvəlki illərlə müqayisədə hazırda xarici dillərdə fəaliyyət göstərən media orqanlarının sayında artım müşahidə olunmaqdadır. Artıq xeyli sayda xəbər agentliyi mövcuddur ki, Azərbaycan dili ilə yanaşı, rus, ingilis, fransız və alman dillərində fəaliyyət göstərir. Bu, əslində ölkəmizin doğru yöndə tanınması üçün ən önəmli amillərdəndir. Amma bu istiqamətdə həyata keçirilən tədbirlərin gözlənilən effekt verməsi üçün başlıca şərtlərdən biri xaricidilli jurnalistlərin olmasıdır ki, ekspertlər bu sahədə vəziyyətin qənaətbəxş olmadığı qənaətindədir. Hesab edirlər ki, ölkəmizin dünya informasiya məkanına daxil olması üçün aparıcı dilləri bilən jurnalistlərlə yanaşı bir çox dövlət orqanları da bu sahədə mediaya dəstək olmalıdır. Yəni bu sahədə mütləq proqressiv addımlar atılmalı, bu istiqamətdə dövlət səviyyəsində diqqət ayrılmalı və maraqlı layihələr həyata keçirilməlidir.

Düzdür, Vətən müharibəsində Azərbaycan həm döyüş meydanında, həm də informasiya cəbhəsində mühüm nailiyyətlər qazanaraq möhtəşəm qələbəni təmin etdi. Jurnalistlər Azərbaycan həqiqətlərini istər yerli, istərsə də beynəlxalq ictimaiyyətə düzgün çatdırmaq məqsədilə məsələni peşəkarlıqla işıqlandırdılar. Xüsusilə də, Türkiyə mediasının Vətən müharibəsi dönəmindəki rolu danılmazdır. Qardaş ölkənin mediası Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında mühüm rol oynadı. Qarabağ savaşı artıq bitib, lakin informasiya savaşı yenə də davam edir. Buna görə də, atəşkəsi olmayan informasiya müharibəsində daim diqqətli olmaq mühüm məsələlərdən biridir. Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması baxımından beynəlxalq əlaqələrin genişləndirilməsinə çox ehtiyac var.

**Mövzu ilə bağlı fikirlərini "Şərq"lə bölüşən "İslahatçı Gənclər" İctimai Birliyinin sədri Fərid Şahbazlı hesab edir ki, bu günləri Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması üçün media sahəsində beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsinə çox ehtiyac var. Onun sözlərinə görə, bu məsələ bu günləri Azərbaycan mətbuatının qarşısında dayanan ən ciddi məsələlərdən biridir:** "Biz xüsusilə 44 günlük Vətən müharibəsi dövründə bunun nə qədər aktual olduğunu gördük. Yəni hesab edirəm ki, Azərbaycanın ayrı-ayrı mətbuat orqanlarının fəaliyyətinin əsas istiqamətlərindən biri kimi xarici media təşkilatları ilə əməkdaşlığı əsas götürülməlidir. Bu əməkdaşlıq həm ikitərəfli, həm üçtərəfli, həm də ümumiyyətlə, beynəlxalq təşkilatlar çərçivəsində ola bilər. Çünki bilirsiniz ki, bu gün müharibələr və ölkələrə müxtəlif formalı təzyiqlər, fiziki gücdən daha çox yumşaq güc vasitəsilə həyata keçirilir. Yumşaq gücün də əsas alətlərindən biri şübhəsiz ki, mediadır. Sosial şəbəkələrdə hesab edirəm ki, bizim mətbuat orqanları bu istiqamətdə ciddi işlər görməlidirlər. Ən azı region ölkələrinin mətbu orqanları ilə tərəfdaşlıq haqqında müəyyən razılıq əldə edilməlidir. Biz müharibə dövründə gördük ki, Türkiyə ilə Azərbaycan mediası arasında ortaq koordinasiyalı işin aparılması Azərbaycan həqiqətlərinin təbliği işinə nə qədər böyük imkan yaratdı. Əlbəttə xüsusən də, Türkiyə ilə Azərbaycan ortaq media platformasının yaradılması barədə qərarın qəbul olunmasını xüsusilə mühüm qiymətləndirirəm. Çünki Türkiyə mediasına yalnız türk auditoriyası kimi baxılmamalıdır. Türkiyə mediası dünyanın ən böyük medialarındandır. Bu da Azərbaycanın dünya mediasına açılan qapısı sayıla bilər. Bu gün nəzərə almaq lazımdır ki, Türkiyədə 400 xarici kütləvi informasiya vasitəsi akkreditasiyadan keçib. Bu, olduqca böyük bir rəqəmdir".

*Ekspert əlavə edib ki, bu gün biz Türkiyədə mətbu orqanların maddi-texniki bazasını, onun kadr potensialını qiymətləndirsək görərik ki, bu istiqamətdə böyük uğurlar əldə edilib:* "Əlbəttə, belə bir güclü ölkənin mediası ilə əməkdaşlıq şübhəsiz ki, Azərbaycana böyük bir şansdır. Amma biz yalnız Türkiyə ilə kifayətlənməməliyik. Region ölkələri, daha sonra digər böyük ölkələrlə bu əməkdaşlıqlarımız genişləndirilməlidir. Məsələn, ATƏT Avropa Şurası çərçivəsində mütəmadi olaraq media azadlığı, mətbuatla bağlı müxtəlif beynəlxalq konfranslar, forumlar keçirir. Hesab edirəm ki, bizim mətbuat orqanları da burada aktiv iştirak etməlidir. Ümumiyyətlə, fikrimcə, xarici dili bilən, eyni zamanda xarici media və təşkilatlarla işləməyi bacaran jurnalistlərin və ya media mütəxəssislərinin sayının artırılmasına mühüm ehtiyac var".

*F.Şahbazlı diqqətə çatdırıb ki, Vətən müharibəsini qələbə ilə başa vursaq da, ancaq diplomatik və informasiya savaşı müstəvisində bu müharibə hələ bitməyib:* "Hesab edirəm ki, Ermənistanın təxribatçı siyasəti nəticəsində hələ bu, uzun illər bitənə oxşamır və bu mənada bütün bunlara hazır olmalıyıq. Əlbəttə, bu istiqamətdə dövlətin dəstəyi zəruridir. Hesab edirəm ki, səfirlərimiz bizim media orqanlarına yaxından yardım etməlidirlər. Eyni zamanda yeni yaranan Media İnformasiya Agentliyinin də əsas vəzifələrindən biri bu olmalıdır. Buna görə də, mətbuatın beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsi, xarici mətbu orqanları ilə tərəfdaşlıq müqavilələrinin imzalanması, regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq bu istiqamətdə çox əhəmiyyətlidir. Bütün bunlar Azərbaycan həqiqətlərinin, ölkəmizin dünya mədəniyyətinə, tarixinə verdiyi töhfələrin təbliği və ən əsası haqq səsimizin çatdırılması baxımından çox əhəmiyyətli olar".

Tanınmış jurnalist Vüqar Zifəroğlu "Şərq"ə açıqlamasında beynəlxalq media əlaqələri üçün ilk növbədə sağlam infrastrukturun yaradılmasının çox mühüm olduğunu vurğulayıb: "Bildiyimiz kimi, Azərbaycan-Türkiyə arasında imzalanan Birgə Media Platforması ikitərəfli əlaqələrini gücləndirməklə, strateji media ortaqlığının qurulmasını nəzərdə tutur. Onun əsas fəaliyyət istiqamətləri kimi məlumat, bilik, təcrübə və mənbələr mübadiləsi, iki ölkənin media sahəsində çalışan rəsmi qurumlarının birgə araşdırmalar həyata keçirməsi nəzərdə tutulub. Təlim və mübadilə proqramlarının təşkil olunması, eləcə də fikir liderləri arasında rabitə körpüsünün qurulması da əməkdaşlığın müddəaları sırasındadır".

*Ekspert vurğulayıb ki, Vətən müharibəsində Türkiyə mediası Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında çox mühüm rol oynadı: "Əlbəttə ki, Türkiyə mediasının bu istiqamətdəki rolu danılmazdır. Birgə Media Platformasının yaradılmasının Azərbaycan və ölkə mediasının inkişafında çox mühüm rol oynayacağı danılmazdır.* Amma unutmaq olmaz ki, media hər zaman dinamik və dəyişkən bir sahə olub. Çünki texnologiyalar inkişaf edir, jurnalistikanın özü simasını dəyişir və s. İlbəil bu fərq getdikcə daha qabarıq şəkildə özünü göstərməkdədir. Çünki janrlar dəyişir, jurnalistikanın prinsipləri, jurnalistikanın fəlsəfəsinə baxış dəyişir. Ölkəmizdə yaradılan Medianın İnkişafı Agentliyi medianın gələcək inkişafı baxımından son dərəcə əhəmiyyətli və ciddidir. Amma unutmaq olmaz ki, yalnız Türkiyə ilə deyil, beynəlxalq media ilə əlaqələrin gücləndirilməsinə çox ehtiyac var".

*V.Zifəroğlu qeyd edib ki, beynəlxalq media əlaqələrinin qurulması və inkişafı Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında mühüm vasitədir:* "Qeyd edim ki, beynəlxalq jurnalistika həmişə ən yüksək meyarlardan biri olub. Beynəlxalq jurnalistika sahəsində peşəkar kimi formalaşmaq üçün ilk növbədə jurnalistdən politologiyanı, tarixi, fəlsəfəni bilmək zəruridir. Bir məqamı qeyd edim ki, hansı region üzrə ixtisaslaşırsınızsa, onun spesifik məqamlarını bilməlisiniz. Hesab edirəm ki, xarici jurnalistlərlə əlaqələrin qurulmasına çox ehtiyac var. Bu sahədə ixtisaslaşmaya ehtiyac var. Bildiyimiz kimi, beynəlxalq auditoriyaya informasiya çatdırarkən təhlillərin düzgün aparılması çox mühümdür. Ümumiyyətlə, beynəlxalq təşkilatların - ATƏT, BMT, UNESCO-nun bir sıra sahələrlə bağlı qəbul etdiyi tövsiyə xarakterli qərarları, tövsiyələri və deklarasiyaları vardır. Həmin sənədlər də beynəlxalq jurnalistlərə aid qərarlar da vardır. Hesab edirəm ki, beynəlxalq əlaqələr qurularkən bu sənədlərin hər bir jurnalist tərəfindən bilinməsi mühümdür".

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# İşıq pulları birdən-birə niyə artdı?

## Vətəndaşlar çaş-baş qalıb, oyundan baş açmırlar



Əhali elektrik enerjisinə görə aylıq ödənişlərdə yüksəlmələr olmasından narazıdır. Bəzi sakinlər bildirir ki, ötən ilin noyabr ayı ilə müqayisədə 2020-ci ilin dekabr ayı üçün onlara təqdim olunan ödəniş qəbzlərində qeyd olunan məbləğ nəzərəçarpan dərəcədə artım var. Sakinlər elektrik enerjisinin orta aylıq sərfiyyatının adətən eyni ölçüdə olduğunu iddia edir. Lakin qəbzlərdə göstərilən məbləğə baxanda belə təəssürat yaranır ki, dekabr ayında sanki daha artıq elektrik enerjisi istifadə edilib.

Halbuki, elektrik enerjisindən istifadədə dəyişiklik baş verməyib. Vətəndaş adətən, ötən aylarda istifadə etdiyi qədər elektirk enerjisi sərf edib. Bəs necə olur ki, elektrik enerjisinin sərfiyyatı artır? "Bakıelektrikşəbəkə" ASC-yə bu vəziyyətlə bağlı abonentlərdən çoxsaylı şikayətlər daxil olduğu da bildirilir. Belə bir iddia da var ki, guya, hazırda istifadədə olan elektrik sayğacları normal halda 220 V-la qidalanır, lakin sayğacda sərfiyyat yüksək göstərilsin deyə, sayğaclara elektrik enerjisi 160 V-la verilir. Bu halda sayğac elektrik enerjisi ilə normal qidalana bilmədiyindən sərfiyyat artır, nəticədə göstəricilərdə də yüksək rəqəm qeydə alınır. Xatırladaq ki, bir müddətdir abonentlər qaz sayğaclarından da narazılıq edir, sayğacların istifadə olunan qazın ölçüsünü yüksək göstərdiyini, ötən aylarla müqayisədə son ayda daha artıq qaz pulu ödədiklərini bildirirlər. Nə işdisə, son ayda hər sahədə bir artım müşahidə edilir. Suyun dəyəri rəsmən qalxıb, təbii qaz və elektrik enerjisinin dəyərində isə deyəsən, gizli artım baş verir.

**İddiaların nə dərəcədə real ola biləcəyini öyrənmək üçün iqtisadçı Pərviz Heydərliyə müraciət etdik. P.Heydərli "Şərq"ə açıqlamasında belə bir halın mümkün olmadığını dedi:**

- Elektrik sayğacına hansı gərginlikdə elektrik cərəyanı daxil olursa, çıxış da mütləq eyni gərginlikdə olur. Əgər sayğaclara daxil olan elektrik enerjisinin gərginliyi azaldılmış olsa, vətəndaş bunu elektrik avadanlıqlarının işləmə tempində hiss edəcək. Bir mənzildə görün, nə qədər elektrik avadanlığı var. Soyuducu, televizor, paltaryuyn maşın, elektrik soba, ütü, tozsoran... Mən demək olar, əhalinin böyük əksəriyyətinin gündəlik istifadə etdiyi elektrik avadanlıqlarını sadaladım. Elə ailə var, elektrik su qızdırıcısından istifadə edir, eləsi var, elektrik sobası yoxdur, yaxud bəzisində qabyuyan maşın var, bəzisində yoxdur. Ümumilikdə böyük əksəriyyət məişətdə elektrik avadanlıqlarından geniş istifadə edir. Mənzillərə verilən elektrik enerjisinin gərginliyi azalsa, avadanlıqların işləməsində bu, özünü göstərəcək. Vətəndaş bunu biləcək. Çünki 220 V-la 160 V arasında böyük fərq var. Gərginliyin azalıb-artması tənzimləyici (stabilizator) olan yerdə hiss edilməz. Adi halda isə bunu hiss etməmək mümkün deyil. İkincisi, ümumiyyətlə, istər elektrik sayğacları, istər qaz, istərsə də su sayğacları bunların heç birinə kənardan müdaxilə etmək mümkün deyil. İstəsələr elektrik enerjisinin də dəyərini qaldırarlar. Deyəcəklər, gəlirlər xərcləri ödəmir, vəssalam. "Asan" yol budu. Amma gəlirləri artırmaq üçün sayğaclara müdaxilə etmək, gərginliyi azaldıb-artırmaq, hansısa qeyri-leqal yollarla artıma nail olmaq, bu, nə texniki baxımdan mümkündür, nə də reallıq baxımından. Vətəndaşa ötən aylarla müqayisədə elektrik enerjisindən daha artıq istifadəni göstərən qəbz gəlibsə, sərfiyyata diqqət etsinlər. Bəlkə də fərqində deyillər, amma elektrik enerjisini daha artıq istifadə ediblər.

**Məlahət Rzayeva**

## Məmurlar talayır, kompensasiyanı xalqın hesabına ödədirlər

### Baş verənlər "Azərsu" ASC-nin xarici şirkətlərə satılması ehtimalını da artırır




**Tarif Şurasının növbəti iclası keçirilib. İclasda aidiyyəti qurumların müraciətlərinə baxılıb və müvafiq qərarlar qəbul edilib. "Azərsu" ASC-nin müraciəti müzakirə olunub.**

Bir kubmetr su təchizatının tarifi ƏDV daxil olmaqla əhali üzrə Bakı, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonu üçün 70 qəpik, digər inzibati ərazi vahidləri üzrə 60 qəpik, tullantı sularının axıdılması xidmətinin tarifi isə ölkə üzrə bir kubmetr üçün 30 qəpik səviyyəsində təsdiq olunub.

Müşahidələr göstərir ki, yeni qərar əhali arasında böyük narazılıq yaradıb.

**İqtisadçı-ekspert Natiq Cəfərli Tarif Şurasının suyun qiymətini ikiqat qaldırması barədə fikirlərini "Şərq"lə bölüşüb:**

*Ekspert deyib ki, öncə "Azərsu" ASC-nin rentabelli işləməməsinin səbəbləri aydınlaşdırılmalıdır:* "Aidiyyəti məmurların qiymət şişirtməsi və yeyinti ilə vurduğu ziyanlar üzə çıxarılmalı, aydınlaşma aparılmalı, sonra qərar verilməli idi. İndiki halda isə məmurların bu yeyintisi əhalinin hesabına kompensasiya edildi".

N.Cəfərli vurğulayıb ki, baş verənlər "Azərsu" ASC-nin xarici şirkətlərə satılması ehtimalını da artırır:

"Mümkündür ki, dövlət xarici sərmayələri cəlb etmək üçün su satışını xarici ölkə şirkətinə satsın. Elektrik enerjisi və təbii qazın da qiymətinin artırılacağını gözləyə bilərik".

**Yeganə Bayramova**

## Həkimlər düzgün diaqnoz qoya bilməyiblər

### Tanınmış şair Behrudi səhhətindən danışıb



**"Hazırda səhhətim yaxşı deyil. Başımda və onurğa sütunumda şiddətli ağrılarım olur. Həkimlər nə deyirsə, edirəm, amma hələ ki, bir nəticə yoxdur. Doğrudur, burada həkim dostlarım çoxdur, əllərindən gələni edirlər, amma hələ ki, bir şey alınmır".**

Bunu Publika.az-a açıqlamasında türk dünyasının tanınmış fikir adamı, şair Rüstəm Behrudi səhhəti ilə bağlı danışarkən deyib. Şairin sözlərinə görə, hələ ki, çoxşaxəli xəstəlikləri ilə mübarizə apara bilir:

"Həkimlər nə deyirlərsə, edirəm, fəqət, bir nəticə hasil olmur. Bir də görürsən ki, təzyiqim 150-yə, şəkərim isə 250-270-ə qalxır. Hələ ki, ağrılarıma qarşı dayanıram, etiraz edirəm, mübarizə aparıram. Amma gərək mübarizədən artıq da şeylər edəsən".

**Rüstəm Behrudi indiyə qədər aldığı müalicənin qeyri-effektiv olmasını düzgün diaqnoz qoyulmaması ilə əlaqələndirib:**

"Düzgün diaqnoz qoya bilmirlər. Hələ ki, yollar açılmayıb, yollar açılan kimi xaricə üz tutacağam. Müalicə üçün Türkiyədə çox olmuşam, yəqin ki, imkan olsa, bu dəfə səhiyyənin daha yaxşı inkişaf etdiyi ölkələrə - İsrailə, Almaniyaya, Avropa ölkələrinə, bir sözlə, daha uzağa getmək istəyirəm. Çünki bu ağrılar mənim axırıma çıxıb. Yolların açılmasını gözləyirəm. Səhhətim əl vermədiyi üçün idman da edə bilmirəm".

# Şəffaflıq şərtdir

## Bəzən vətəndaş cəmiyyətlərindən alət kimi istifadə olunur

"Qeyri-hökumət təşkilatlarının faydalı fəaliyyət göstərməsinə nail olmaq üçün onlardan şəffaflıq tələb olunmalıdır". Bu sözləri "Şərq"ə açıqlamasında Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının üzvü, "Sağlam İnkişaf və Maarifləndirmə İctimai" Birliyinin sədri Anar Xəlilov deyib. Birlik rəhbəri vurğulayıb ki, normal fəaliyyət göstərən QHT-lərdən şəffaflıq tələb olunmasında heç bir problem yoxdur:



Bir də görürsən siyasi partiya ətrafında "peyk" funksiyasını icra edən QHT-lər yaradılır

"Ötən gün AŞPA-nın iclasında çıxış edən millət vəkili Səməd Seyidov məsuliyyətsiz qeyri-hökumət təşkilatlarının fəaliyyətinin yolverilməz olduğunu vurğuladı. Səməd müəllimin fikirləri ilə tam razıyam. QHT-nin rolu cəmiyyətin inkişafında vətəndaş mövqeyindən çıxış edərək müxtəlif sahələr üzrə fəaliyyət aparmaqdır. Bu qurumlar siyasi təşkilat sayılmır. Lakin bəzən müşahidə edirik ki, hər hansısa siyasi partiya ətrafında "peyk" funksiyasını icra edən QHT-lər yaradılır və başqa məqsədlər üçün istifadə edilir. Siyasi partiyaların xaricdən maliyyələşməsi bütün dövlətlərdə qanunla qadağandır. Bu məqsədlə "peyk" qeyri-hökumət təşkilatları yaradılır və onların vasitəsi ilə xarici maliyyə əldə edirlər. Eyni zamanda bəzi qurumlar vasitəsi ilə terrorçu təşkilatlar maliyyə vəsaiti ilə təmin olunurlar. Bu tip misallar çoxdur".

**A.Xəlilovun fikrincə, çirkli məqsədlərlə fəaliyyət göstərən QHT-lər şəffaflıq tələb olunduqda bunu özlərinə "təzyiq" kimi qələmə verərək hay-küy salırlar:** "Çox təəssüflər olsun ki, Qərbin digər ölkələrə qarşı apardığı siyasətdə vətəndaş cəmiyyətindən alət kimi istifadə olunur. Bir çox Qərb demokratiya institutları bu işlərdə peşəkardırlar. Xatırlasaq, keçmiş sovet respublikalarındakı "rəngli inqilablar", ərəb ölkələrindəki "bahar inqilabları" həmin Qərb demokratiya institutlarının fəaliyyəti nəticəsində baş vermişdi. QHT-lər vasitəsi ilə bu cür çirkin oyunların qurulması demokratik prinsiplərə xəyanətdir. Qeyri-hökumət təşkilatlarının cəmiyyətin inkişafında böyük rolu var. Dünyada fəaliyyət göstərən sağlam beynəlxalq təşkilatlar bu cür oyunlara qarşı çıxmalı, QHT-nin sağlam fəaliyyətinin təmin olunması üçün yeni mühitin formalaşmasına yardım etməlidirlər. Səməd müəllim də məruzəsində bunu xüsusi qeyd edib".

**Anar Xəlilov vurğulayıb ki, bu gün Azərbaycanda QHT-nin normal fəaliyyəti üçün sağlam mühit formalaşıb:** "Dövlətin apardığı siyasətin prinsiplərindən biri vətəndaş cəmiyyətinin inkişafını təmin etməkdir. Qəbul olunan qanunlar, verilən sərəncamlar bu gün Azərbaycanda qeyri-hökumət təşkilatlarının fəaliyyət göstərməsinə tam şərait yaradıb. Bu sahədə Azərbaycan dövlətinin atdığı addımların çoxu dünyada yeni bir model kimi istifadə oluna bilər. Sadəcə müasir dünyanın tələblərinə cavab verən QHT-nın inkişaf etdirilməsinə ehtiyac var. Peşəkar qurumların sayının artırılması bu gün çox aktualdır. Bu isə vətəndaş cəmiyyətində bu gün fəaliyyət göstərən insanlarımızdan asılıdır".

**İsmayıl Qocayev**

# Kasıb ailələrdə əsəblər tarıma çəkilib

## Tələbdir, imtahan verən tələbələrin mütləq kompüteri və ya noutbuku olmalıdır



Semestr imtahanlarında mobil telefon vasitəsilə iştiraka icazə verilməməsi tələbələr üçün əlavə çətinlik yaradıb. Ali məktəblərin tələbə qarşısında tələbi budur ki, imtahanlara mütləq qaydada ya kompüter, ya da noutbukla qoşulmalıdırlar. Belə xəbərləri eşidəndə belə təəssürat yaranır ki, Təhsil Nazirliyi, ya da ali təhsil müəssisələri bütün tələbələri noutbukla, kompüterlə təmin edib, indi də verdiyinin əvəzini tələb edir.

Halbuki, kompüteri, noutbuku olmayan, bəlkə hətta mobil telefona da möhtac tələbələr var. Görəsən, niyə ali qurumlar belə zənn edir ki, bütün tələbələrin noutbuku, kompüteri var? İnternet əsri bütün vətəndaşlara həm də sosial təminatda eynilik dərəcəsi verirmi görəsən?! Nə isə... Gələk imtahanlara qoşulmada mobil telefonlara qadağa məsələsinə. Tutalım, bir ailədə iki gənc ali məktəb tələbəsidirsə və taleyin ironiyası deyək, ikisinin də imtahanı eyni günə, hətta "bədbəxtlikdən" eyni saata təsadüf edirsə və evdə də cəmi (!) bir noutbuk varsa, bu tələbələr imtahana necə qoşulacaqlar? Gözləməlidirlər, hansısa birinci imtahanı versin, bitirsin, sonra digəri qoşulsun. Amma müəllim də irad tuta, hətta imtahana qoşulmaq üçün növbəsini gözləyən tələbəyə "kəsir" qeydə ala bilər. Ya da valideyn məcburdur, qonşuların qapısını döyüb borca kompüter, noutbuk istəsin. Niyə mobil telefonla imtahanlar qəbul edilmir? Bir halda ki, onlayn tədrisdir, üstəlik də pandemiyadır, o cümlədən hər kəsin maddi-sosial imkanları eyni deyil, o zaman tələbələrə güzəşt edilməlidir. Kompüteri, noutbuku, hətta mobil telefonu olmayan tələbə üçün imtahanlar əyani formada təşkil edilməlidir. Ali məktəblər istisna halları nəzərə almalıdır. İmtahanlar üçün də (guya ki, dərslər üçün yaman edilib - red. ) alçatanlıq təmin edilməlidir. Bunun üçünsə ali təhsil müəssisələrinin hələ imtahanlar başlamamış konkret proqramı, cədvəli olmalıydı.

**Təhsil eksperti Rafiq İsmayılov "Şərq"ə açıqlamasında imtahanlara hansı avadanlıqla qoşulmanın imtahanın xarakterindən asılı olduğunu bildirdi:**

- Yəqin ki, semestr imtahanlarında iştiraka kompüter və ya noutbukla icazə verilməsi imtahanların xarakterinə görə müəyyən edilir. Elə fəndən imtahan ola bilər ki, mobil telefonun imkanları ilə iştirak qüsurlu alınar. Bəlkə tələbə nəsə yazmalı, nəsə nümayiş etdirməlidir, amma mobil telefonun xüsusiyyətləri buna imkan vermir. Mobil telefonlarda, smartfonlarda kompüterlərin bəzi imkanları toplanıb, lakin hamısı deyil. Mobil telefonların imkanları kompüter qədər geniş olmur. Ola bilsin, buna görə, tələbələr qarşısına belə bir tələb qoyulub. Məsələn, orta məktəb şagirdləri smatfonla da dərslərə qoşulur, orta məktəblərdə qiymətləndirmə də onun vasitəsilə aparıldı. Amma ali məktəblərdə semestr imtahanları görünür, daha geniş ölçülüdür və bunun üçün də noutbuk, kompüter tələb olunur. Qaldı ki, tələbələrin kompüterə, noutbuka malik olmalarına, bu, artıq sosial məsələdir. Tələbənin noutbuku olmalıdır, deyə bilərəm. 21-ci əsrdə noutbuksuz tələbə heyrətli görünə bilər. Lakin bilirik ki, elə ailələr var, maddi imkansızdılar. Hər bir valideyn ali məktəbə daxil olmuş övladını kompüterlə təmin etməyə çalışır və edir də. Lakin yenə də sırf maddi imkansızlıq üzündən buna nail olmayanlar da var. Pandemiya dövründə onlayn tədrisə keçildi və məlum oldu ki, biz buna hazır deyilik. İnternetin verilişindəki çatışmazlıqlar, dayanmalar, sürət azlığı, texniki avadanlıqların yetərli olmaması, orta və ali məktəblərin kompüterləşməyə hazır olmaması, bütün bu nöqsanlar üzə çıxdı. Onlayn tədrisə keçilmişdisə, imtahanlar üçün də xüsusi proqramlar hazırlanmalıydı. Müəllim-tələbə təması sıfırlanmalıydı. Biz gözləmədiyimiz halda tamam fərqli bir mühitə düşdük və hazırlıqsızlıq da özünü göstərdi. Bəlkə bu ümumilikdə bizim təhsilimiz üçün bir keçid mərhələsi, bir imtahan olar, nəticəsi nə olursa, olsun, sonrakı mərhələyə daha yaxşı hazırlaşarıq.

**Məlahət Rzayeva**

## Cəbhə bölgəsindəki hərbçilərin maaşı ikiqat artırılmalıdır

### İlham Tumas: "Çünki onlar həyatlarını təhlükəyə atırlar, ailələrindən uzaq qalırlar"



**Milli Məclisin dünən keçirilən növbəti iclasında millət vəkili Siyavuş Novruzov hərbçilərin maaşının azaldılmasına etiraz edib.**

O, əsgərlərimizin 44 günlük müharibədə rəşadət göstərdiyini bildirib. Hərbçilərimizin evlə təmin olunmasının vacibliyini vurğulayan S.Novruzov əlavə edib ki, hərb sahəsində çalışanlar yüksək əməkhaqqı almalıdırlar. Digər parlamentari Elman Nəsirov da bu məsələyə həssas münasibət bildirib: "Bu gün əsgər və zabitlərin maaşlarının azaldılması, yaxud qiymət artımı ilə bağlı xəbərlər tirajlanır. Bu xəbərlər ordumuzun böyük qələbəsi üzərinə kölgə salır". Deputat vurğulayıb ki, əsgər və zabitlərin maaşları məsələsinə çox diqqətlə yanaşılmalıdır: "Yayılan xəbərlərlə bağlı hələ də əsaslı açıqlama verilməyib. Azərbaycan dövləti tarixdə heç vaxt bu qədər güclü olmayıb. Bu gün bizim əsgər və zabitlərimizin maaşlarının artırılmasına ehtiyac var. Buna bizim imkanlarımız da çatır. Nəzərə alaq ki, tirajlanan xəbərlər düşmən tərəfindən də izlənilir".

"Hərbçilərin maaşları xidmət etdikləri bölgənin relyefinə, o cümlədən hündürlüyə görə müəyyənləşməlidir"

**Cəmiyyətdə ciddi ajiotaj yaradan məsələyə dair "Şərq"ə fikirlərini bildirən ehtiyatda olan zabit, hərbi jurnalist İlham Tumasın da fikirləri birmənalıdır:** "Əlbəttə, cəbhə bölgəsində xidmət edənlərin maaşları ikiqat, üçqat artırılmalıdır. Çünki onlar həyatlarını təhlükəyə atırlar, ailələrindən uzaq qalırlar. Ümumiyyətlə, hərbçilərin maaşları xidmət etdikləri bölgənin relyefinə, o cümlədən hündürlüyə görə müəyyənləşməlidir. Məsələn, mən 1996-2000-ci illərdə Murovda xidmət edəndə digərlərinə nisbətən çox əməkhaqqı alırdım".

**Kənan**

## Pulsuzluq, çarəsizlik budur

### Xalqın çəkdiklərini indi müğənnilər də çəkir



**Bir ildir ki, ölkədə toylar və şənliklərlə bağlı qadağalar var. Koronavirus infeksiyasının qarşısının alınması məqsədilə kütləvi yığıncaqlara icazə verilmir.**

Ona görə də qazancları, gəlirləri toylardan olan insanlar, xüsusilə də müğənnilər zaman-zaman gileylənir. İstər sosial şəbəkələrdə, istərsə də mediaya açıqlamalarında sıxıntılarının olduğunu söyləyirlər. **Şou-biznesdəki son durumu "Şərq"ə dəyərləndirən tanınmış aparıcı, psixoloq İlham Mirzəyev deyib ki, müğənnilər içərisində bir-iki nəfəri imkanlıdır:** "Onlar da vaxtında ev-eşik alıblar. Amma əksəriyyəti maşınları, evləri, zinət əşyalarını borca, kreditə götürüb. Heç vaxt bilməzdilər ki, Azərbaycanda bir ilə yaxın toy olmayacaq. Yerindən duran borca girib mahnı oxuyurdu, paltarı kirayəyə götürürdü, maşın alırdı. Pul verirdilər klip çəkdirirdilər, mahnı yazdırırdılar. Koronavirus onlara həm maddi, həm də mənəvi ziyan vurdu. Pandemiya dövrünün əvvəllərində şou əhlinin çoxu sadə insanlara yardım etdi. Düşünmürdülər ki, toylarlara tətbiq olunan qadağa bu qədər uzanar. Onlara da yazığım gəlir, amma sadə xalqa da ürəyim yanır. Çünki biz insanlar çox ağını çıxarmışdıq. Toyu ən bahalı yerlərdə edirdik, restoran müdirlərinin ciblərini doldururduq. Bir toya 4-5 müğənni gətirirdik, hərəsinə 4 min, 5 min qonorar ödəyirdik.

Borcla-xərclə şənlikləri yola verirdik. Həm də toyda hansı müğənni canlı oxuyurdu ki?! Bir-ikisi canlı oxuyurdu, qalanları fonoqram ifa edirdi. Bir yandan əhalini də düşünmək lazımdır. İndi xalq çəkdiyini onlar da çəkirlər".

**Samirə Ərəbova**

# Hindistan vaksinləri ön sıralardadır

## Bu ölkə özünə də gün ağlayır, vaksinləri xaricə də satır

Koronavisa qarşı daha çox Çin, Almaniya və Rusiya vaksinindən danışılır. Bir çox ölkələr, məhz bu dövlətlərin vaksinlərini əldə etməyə çalışırlar. Ancaq son vaxtlar Hindistan vaksinləri də ön plana çıxıb.



BMT-nin Baş katibi də Hindistan vaksinlərini təriflədi

BMT-nin baş katibi Antonio Quterreş yanvarın 26-dakı çıxışında Hindistan vaksinini tərifləyib: "Hindistanda istehsal edilən vaksinlərin istehsalının çox yüksək səviyyədə olduğunu bilirəm. Bunun üçün Hindistan qurumları ilə təmasda olduğumuzu, Hindistanın bütün alətlərə sahib olacağına ümid edirik. Peyvənd kampaniyasının dünyada tətbiqində Hindistan vaksinlərinin də xüsusi rolu olacağına inanıram".

**"Atlas" Araşdırmalar Mərkəzinin sədri, politoloq Elxan Şahinoğlu "Şərq"ə bildirib ki, Hindistan Butan, Nepal, Əfqanıstan, Şri-Lanka, Mavrikiy, Oman, Nikaraqua, Afrika və Pasifik ölkələrinə peyvəndlər göndərməyə başlayıb. Analitikin sözlərinə görə, Hindistan dünya dərman istehsalında üst sıralardadır:** "Dünyada müxtəlif vaksinlərin istehsalının 60 faizi Hindistanın payına düşür. Koronavirusa yoluxanların və ölənlərin sayına görə Hindistan da Amerika kimi ön sıralardadır. Buna görə Hindistan ilk növbədə öz vətəndaşlarını xilas etməlidir. Hindistanın əhalisi 1 milyard nəfəri aşır.

Buna baxmayaraq, Hindistan icad etdiyi vaksinlərini başqa ölkələrə satmağa da hazırdır. Çin üçün daxili bazar vacib deyil. Çünki Hindistandan fərqli olaraq Çində virusun yayılmasının qarşısı alınıb, yoluxanların sayı nəzarət altındadır. Ona görə də Çin öz vaksinlərini daha çox dünya bazarlarına çıxarır və bundan gəlir əldə edir. Hindistan isə icad etdiyi vaksinləri həm daxildə istifadə etməli, həm də müxtəlif ölkələrə satmalıdır".

**E.Şahinoğlu qeyd edib ki, bir müddət keçdikdən sonra başqa ölkələr də vaksin istehsalına başlayacaqlar:**

"Məsələn, Türkiyədə vaksin sınaqları davam edir, sadəcə bir neçə ölkə vaksin istehsalında irəli çıxdı və ona görə bir çox ölkə həmin vaksinləri almaq məcburiyyətində qaldı. Ancaq vaksin alınmasında şaxələndirmə siyasəti aparılır. Yəni bir ölkə vaksin almaqda yalnız bir ölkədən asılı olmaq istəmir. Ölkələr həm Rusiya, həm Çin, həm Almaniya, həm də Hindistan vaksinlərini alırlar. Bu, vaksin alan ölkənin vaksin satan ölkədən asılılığını azaldır".

**Yeganə Bayramova**

# Bayrama döndü

## Məktəblərin açılması valideynləri də sevindirib, şagirdləri də



Dünəndən məktəbə hazırlıq, məktəbəqədər təhsil qrupları və ibtidai təhsil səviyyəsi üzrə tədris sanitar-gigiyenik tələblər nəzərə alınmaqla ənənəvi formada fəaliyyətə başlayıb.

İbtidai siniflər üzrə əyani təhsil Bakı, Sumqayıt və Abşeronda həftədə 3 dəfə, digər bölgələrdə isə həftədə 4-5 dəfə olmaqla bərpa edilib.

Fevralın 1-dən sonrakı müddətdə isə V-IX siniflərdə təhsil alan şagirdlərin tədrisə ənənəvi qaydada cəlbi barədə qərarın verilməsi düşünülür. Təbii ki, pandemiya şəraiti buna imkan verərsə və yoluxma sayında kəskin artım müşahidə olunmazsa sözügedən qərarın verilməsi reallaşa bilər.

Onu da deyək ki, ibtidai siniflər böyük Vətən savaşından sonra ilk dəfədir ki, əyani olaraq dərsə gedirlər. Şagirdlərə vətənpərvərlik ruhunu təbliğ etmək, şəhidlərimizi ehtiramla anmaq naminə bir çox məktəblərdə müsbət dəyişikliklər edilib. Ağdam rayon 35 saylı tam orta məktəbdə sinif otaqlarına 2-ci Qarabağ müharibəsi şəhidlərinin adı verilib.
Sabunçu rayon Maştağa qəsəbəsində yerləşən 128 saylı məktəbdə şəhidlərimizin adları isə sinif otaqlarına deyil, siniflərin özünə verilib. Məsələn, hər sinfə hansı şəhidin adı verilibsə, o sinifdə oxuyan şagirdlər üçün həmin şəhidin fotosu və adı həkk olunan döş nişanı hazırlanır. Həmin lövhələr və döş nişanları isə məktəb rəhbərliyinin, eləcə də valideynlərin şəxsi hesabları ilə ərsəyə gəlib.

Paytaxtda yerləşən 279 saylı məktəbdə isə zəng şəhid Xudayar Yusifzadənin "Vətən yaxşıdır və ya Xudayar təsnifi" ilə səsləndirilib.

Beləcə, məktəblərdə şəhidlərimizə və onların ailələrinə qarşı olan hörmət və sayğının canlı şahidi olduq və əminik ki, bundan sonra da həmin təkliflərin reallaşmasına şahidlik edəcəyik.

Qarşımızda duran digər məsələ isə məktəblərin açılmasının şagirdlərə, onların dinamikasına və gündəlik yaşayışlarına necə təsir etməsindən ibarətdir. Məktəblilər son qapanmadan sonra ilk dərs günündə hansı çətinliklərlə üzləşiblər?

**Valideyn Mehdiyeva Nisə deyir ki, ənənəvi dərsin başlaması uşaqlar qədər onları də sevindirir:**

"Bu gündən məktəbə gedirlər. Elə çox sevinirlər ki... Nəinki uşaqlar, elə özümüz də sevinirik. Yoxsa onlayn dərslər bizi "yıxıb-sürüyürdü". Telefon da bir ədəd olduğu üçün uşaqların hər ikisini dərsə qoşa bilmirdik. İndi heç olmasa balaca məktəbə gedir, böyük də rahat onlayn dərslərinə qoşula bilir. Heyif deyil ənənəvi dərs? Oğlum da deyir ki, bizim də dərslərimiz açılsaydı, biz də rahat dərs keçərdik".



"Onlayn dərslər bizi "yıxıb-sürüyürdü"

**İbrahimov İsmayıl isə dərslərin yenidən ənənəvi şəkildə başlamasının uşaqlar üçün əsl bayrama çevrildiyini qeyd edib:** "Mən 2-ci sinif şagirdi İbrahimli İsrayılın valideyniyəm. Belə demək olarsa, bu gün bizim həsrətində olduğumuz günlərdən biridir. Belə ki, övladımızın ilk dəfə məktəbə getməsi bizim üçün də bir bayram olub.

Övladım normal dərslərini keçib, dostlarını, müəllimini görüb, bir sözlə, gün onun üçün çox maraqlı olub.

Amma bugünkü günə qədər bütün şagirdlər distant təhsil keçib. O da bizim üçün gözlənilməz idi. Distant təhsilə uyğunlaşmaq bizim üçün çox çətin oldu. Onu deyə bilərəm ki, əyani təhsil uşaqlara daha çox bilik öyrədir, həm də o, daha maraqlıdır. Təbii ki, maraq olursa, öyrənmək də daha asan olur. Ona görə də bir valideyn kimi dərslərin açılmasına görə çox sevinirik və heç istəmərik ki, dərslər yenidən bağlansın".

Bayramova Sevinc: "Uşaqlarımız bu gün dərsə böyük həvəslə getmişdi, məmnunluqla da geri döndülər. Hazırda onların müəllimləri ilə danışırdım. Dedilər ki, uşaqlarınız onlayn dərslərə heç qoşulmayan uşaqlardan seçilirlər, bu gün də dərsdə aktiv iştirak ediblər. Pandemiya vaxtında da geri qalmayıblar. Təəssuratlar heç də pis deyil, əksinə, yaxşıdır. Uşaqların da məktəbə getməyə həvəsi var.

Təki dərs olsun. İşlər onlayna qalsa çox çətindir. Hər gün telefonla dərs keçirlər. Uşaq oturmaqdan da yorulurdu".

Təhsil eksperti Kamran Əsədov da fikirlərini bizə həm də bir valideyn olaraq bildirdi:

"Mənim iki qız övladım məktəblidir. Böyük qızım İlknur üçüncü sinifdə oxuyur. Kiçik isə birinci sinifdədir.

Onlayn dərslərdə böyük qızım daha çox iştirak etsə də, ənənəvi dərslərə onun balaca bacısı daha həvəsli idi. Birinci isə onlayn dərslərə adaptasiya ola bilmirdi, daha çox çətinlik çəkirdi. Çünki o, ilk dəfə oxuma-yazmaya yiyələnirdi. Bu proses onlar üçün çox çətin idi.

Artıq beş gün idi ki, dərslərin yenidən açılması üçün hazırlaşırdıq. Çünki uşaqlar uzun müddət idi ki, evdə qalırdılar. Rejimləri müəyyən qədər pozulmuşdu. Onlayn dərslər gec başladığı üçün uşaqlar da əksər günlərdə yuxudan gec dururdular. Ona görə də biz beş gün idi ki, səhər saat 7-də oyana bilməyi məşq edirdik.

Onu da deyim ki, ənənəvi dərsə getməyə uşaqların hər ikisi can atsa da birinci daha həvəsli idi. Hətta o, paltarlarını, yeməyini və suyunu da özü axşamdan hazırlayıb, çantasını belə gecədən yığıb qapının yanına qoymuşdu. Eləcə də evdə olan bütün telefonların və zəngli saatların vaxtını 7-yə qurmuşdu ki, tez oyana bilsin və dərsə gecikməsin. Lakin yenə də oyanmaqda çətinlik çəkdi"...

Bu dəfə valideyn kimi çıxış edən K.Əsədov övladları məktəbdə olarkən koronavirus əleyhinə hansı mərhələlərdən keçdiklərini və ənənəvi təhsilin onlara necə müsbət təsir etdiyini də xüsusən nəzərə çatdırdı: "Məktəbə daxil olanda qaydalara uyğun olaraq onun istiliyini ölçdülər və əllərini dezinfeksiya etdilər. Təbii ki, özü də qoruyucu maskadan istifadə edirdi, çantasında da özünün spirti var idi. Dərs bitəndən sonra çox böyük əhval-ruhiyyə ilə qarşıladım onu. Yəni həvəsi daha çox idi. Hətta dedi ki, mən həftədə 3 gün yox, hər gün məktəbə getmək istəyirəm.

Onların ənənəvi dərsləri ilə onlayn tədrisi müqayisə etsək, onu deyə bilərəm ki, uşaqlar əyani dərslərə kifayət qədər həvəslə getdilər. Yəni onların buna motivasiyaları var. Bu isə çox yaxşı haldır. İnşallah ki, tədris prosesi bir daha qapanmaz. Çünki bu, həm fiziki, həm də psixoloji baxımdan uşaqlara mənfi təsir edir.

Düzdür, bu proses uşaqlar üçün bir az çətindir. Amma mövcud vəziyyəti ələ ala bilmək üçün bu qaydalara mütləq riayət etməliyik".

**Ağarza Elçinoğlu**

## Alimlər əsassız danışmır

### Yumşalmalar olduğuna görə 3-cü dalğa gözlənilir



**Rusiyada tibb elmləri namizədləri Natalya Eysmont və professor Vasiliy Vlasov pandemiyanın üçüncü dalğasının nə vaxt olacağı barədə əhaliyə xəbərdarlıq ediblər.**

Həkimlərin fikrincə, növbəti dalğa yaza doğru, martın sonu qığılcımlana bilər. Əgər vaksinasiya sürətlənsə, bu üçüncü dalğa yox, mövsümi aktivləşmə hesab ediləcək. Kollektiv immunitet formalaşdıqca isə dalğalar azalacaq. Alimlərin sözlərinə görə, peyvəndləmə kütləvi həyata keçirilməsə, yaz dalğası üçüncü dalğa olacaq.

Virusun mutasiyaya uğraması da üçüncü dalğanın bir qədər güclü olacağına şübhə yaradır. Görünür, sevinmək üçün hələ tezdir. Necə deyərlər, sən saydığını say, gör fələk nə sayır...

Həkim-psixoterapevt Əli Nağıyev növbəti dalğa haqqında "Şərq"ə danışarkən ehtiyatı əldən verməməyi məsləhət göüb: "Alimlərin fikirləri əsassız deyil. Çünki koronavirusun aqressiv ştammı meydana çıxıb. Üstəgəl, bir çox ölkələrdə qapanma bərpa olunub.

Karantin qaydalarının yumşalması bizdə üçüncü dalğanın olacağı ehtimalını meydana çıxarır.

Çünki biz bir çox hallarda karantin qaydalarının yumşalmasından sui-istifadə edirik. Düzdür, üzü yaya doğru getdiyimizi düşünsək, üçüncü dalğanın bizdən yan keçəcəyinə də inanmaq olar.

Hərçənd, əvvəlki təcrübələr göstərir ki, isti hava şəraiti koronavirusun yayılmasına əngəl deyil.

Deməli, qorxu, xof yaranmadan, şəxsi məsuliyyətimizi artırmalıyıq".

**Kənan**

## Jurnalistlərin yardımına böyük ehtiyac var

### Vaksinasiya uğurlu olarsa üçüncü dalğa bizim üçün təhlükə yaratmayacaq



**Rusiyada tibb elmləri namizədi Natalya Eysmont və professor Vasiliy Vlasov pandemiyanın üçüncü dalğasının nə vaxt olacağı barədə əhaliyə xəbərdalıq ediblər.**

Həkimlərin sözlərinə görə növbəti dalğa yaz aylarına doğru yaxud martın sonu qığılcımlana bilər. Virusun mutasiyaya uğraması da üçüncü dalğanın bir qədər güclü olacağını təxmin edir.

*Bununla bağlı "Şərq"'ə açıqlama verən tibb elmləri doktoru, professor Adil Qeybulla düşünür ki, vaksinasiya uğurlu olarsa üçüncü dalğa bizim üçün təhlükə yaratmayacaq:*

"Dünyada epidemioloji vəziyyət stabilləşməyib. Dünyanın bir sıra ölkələrində azalma tendensiyası müşahidə olunsa da, bəzi ölkələrdə virusun yeni mitogen formaları meydana çıxır. Ayrı-ayrı ölkələrdə vəziyyətin müxtəlif olması hər ölkəni özü üçün çarə tapmağa vadar edir. Ölkəmizdə Abreşon yarımadası və digər rayonlarda kollektiv immunitet yaratmağa, demək olar ki, yaxınlaşmışıq. Əgər vaksinasiya prosesi uğurlu keçərsə, biz tezliklə müsbət nəticələrə nail ola bilərik. Belə olan halda üçüncü dalğa bizdən yan keçəcək, müşahidə olunmayacaq".

**Həkim düşünür ki, vaksinasiya məsələsində media işçiləri də iştirak etməli, bunun üçün əhalini məlumatlandırmalı, mənfi düşüncələrin əsassız olduğunu insanlara inandırmalıdırlar:**

"Vaksinasiya ilə bağlı çox ciddi tərəddüdlər mövcuddur. Bunlar isə olduqca zərərli və mənfi tendensiyadır. Düşünürəm ki, jurnalistlər bu yöndə tibb sahəsinə kömək etmək məqsədilə əks düşüncələrə qarşı maarifləndirmə və təbliğat işləri aparsalar yaxşı olar. Beləliklə virusdan tez bir zamanda canımı qurtarmış olarıq".

**Aytac Ali**

# Nəticələr yüksələcək



## İkinci şans verilsə plan yerləri də dolacaq

Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə imtahanda fərqlənmiş nəzarətçi və imtahan rəhbərləri ilə keçirdiyi onlayn görüş zamanı qeyd edib ki, bu il abituriyentlərə iki dəfə şans veriləcək:

"Çalışacağıq ki, bu il qəbul imtahanları zamanı abituriyentlərə iki dəfə şans verək. Mart ayında imkan olsa, iki mərhələli - həm yaz, həm də yay sessiyası təşkil olunacaq". Xatırladaq ki, ötən il sərt karantin rejimi tətbiq olunduğu üçün tələbələrə qəbul imtahanlarında ikinci şans verilməmişdi.

Bəs bu il ali təhsil müəssisələrinə, magistratura və rezidenturaya qəbul imtahanlarının birinci mərhələsinin iki dəfə keçirilməsi nə vəd edir?

**"Şərq"in sualını cavablandıran təhsil eksperti Kamran Əsədov bildirib ki, karantin dövründə ən ciddi məsələ təhsilin təşkili və imtahanların keçirilməsi idi.** Onun sözlərinə görə, keçən il imtahanların keçirilməsində müəyyən sıxıntılar yaşadıq: "Artıq 11 aydır ki, pandemiya dönəmində davranış qaydalarına yiyələnmişik. Bəzi abituriyentlər 2020-ci ildə keçirilən imtahanlarda pandemiyanın gətirdiyi psixoloji gərginlikdən və ümumi tədris prosesindən kənarda qaldıqlarına görə müəyyən qədər zəif nəticə göstərmişdilər.

İstənilən halda magistr və bakalavr pilləsində ikinci şansın verilməsi imtahan nəticələrinin yüksəlməsinə təsir göstərəcək. Bir çox abituriyentlər imtahanlarda iştirak edərkən cavab kartı ilə işləmə mexanizmini bacarmırlar.

Onlar doğru cavabları sual kitabçasından cavab kartına köçürərkən qüsurlara, səhvlərə yol verirlər. Eyni zamanda, həmin şəxslər fənlər üzrə düzgün vaxt bölgüsü aparmırlar. Məsələn, II qrup üzrə imtahan verən abituriyentlər riyaziyyat və coğrafiyaya daha çox vaxt ayırırlar, bir də görürlər ki, artıq vaxt bitir, digər fənnə zaman çatmır".

**K.Əsədovun fikrincə, imtahanlar bir neçə dəfə keçirilərsə, abituriyentlərimiz fənlər üzrə düzgün vaxt bölgüsü apara və cavab kartı üzərində işləmə təcrübəsinə yiyələnə bilərlər:** "Ən vacib məqam təkcə bilik olaraq hazırlaşmaq deyil. Qeyd etdiyim alətlərlə də işləməyi bacarmaq lazımdır. 16-17 yaşlı imtahan verən şəxs geniş auditoriya qarşısında özünü toparlaya bilmir. İkinci şansın verilməsi ilə 2020-ci illə müqayisədə builki nəticələrin yüksələcəyini müşahidə edəcəyik. Bu da plan yerlərinin tam şəkildə dolmasına, müsabiqə şərtinin artmasına gətirib çıxaracaq".

**Aygün Tahirqızı**

# Azercell Biznes korporativ müştəriləri üçün yeni limitsiz internet təqdim edir

## Biznesinizi 9.90 AZN-dən başlayan qiymətlərlə limitsiz internet paketlərilə genişləndirin

Azercell | Biznes

Mobil internetə günbəgün artan tələbatı nəzərə alan Azercell Biznes korporativ abunəçiləri üçün ölkədə ilk dəfə tamamilə limitsiz internet trafikinə malik unikal təklifi təqdim edir.

Korporativ abunəçilərin biznes ehtiyaclarını qarşılamaq məqsədilə hazırlanan yeni GigaMax limitsiz internet paketləri sizə yüksək sürətlə və minimal gecikmə təminatı ilə internetdən istifadə etməyə, iri həcmli faylları yükləməyə və endirməyə, eləcə də, videokonfranslar keçirməyə imkan verir. Limitsiz İnternet paketləri trafikin həcmi ilə bağlı heç bir narahatlıq keçirmədən əlavə xərcsiz sadə və bəlli ödənişlə internetdən faydalanmaq deməkdir.

Ölkədə ilk dəfə Azercell Biznes tərəfindən təqdim olunan bu yeni məhsul mobil internetə olan fərqli tələblərin təminatı məqsədilə abunəçilərə 3 növ internet paketində təklif olunur:

GigaMax - sürəti 1Mbps gədər olan sərfəli və limitsiz internet paketi abunəçilərə aylıq cəmi 9.90 AZN-ə təklif olunur. Bu paket rahat şəkildə internetdə müxtəlif axtarışlar, onlayn yazışma proqramları, elektron poçtun idarə olunması və internetlə bağlı digər əsas biznes ehtiyaclarının qarşılanması üçün ideal seçimdir.

GigaMax+ istənilən yerdə daima ünsiyyətdə olmaq və işinizə nəzarət etmək üçün güvənə biləcəyiniz limitsiz internet paketidir. Bu paket aylıq cəmi 19.90 AZN ödəməklə sizə 5Mbps sürətə gədər internetdən faydalanmaq imkanı verir. GigaMax+ müxtəlif iri həcmli faylların paylaşılması və yüklənməsi, eləcə də, biznes səhifənizin sosial şəbəkələrdə idarə olunması üçün çox əlverişlidir.

GigaMax Pro - işinizin bütün tələblərini tam qarşılayan maksimal sürətli limitsiz internet paketi ayda cəmi 49.90 AZN müqabilində sizi ən yüksək sürətli və limitsiz internetlə təmin edir. Bu paket daxilində korporativ abunəçilər işlərinin uğuru üçün mobil internetin verdiyi bütün imkanlardan istənilən qədər yararlana bilər.

İndi Azercell Biznesin korporativ abunəçiləri özünə uyğun Limitsiz İnternet paketini seçərək yüklənən data həcmini düşünmədən sərhədsiz internet imkanlarından maksimum yararlanacaq. Belə ki, internetlə bağlı məhdudiyyətlərin olmaması sizə trafikin həcmi ilə bağlı heç bir narahatlıq keçirmədən mobil internet xərclərinə nəzarət etməklə işinizi rahat şəkildə idarə etmək imkanı verəcək.

Gigamax limitsiz internet paketlərini seçməklə Azercell Biznes abunəçiləri öz bizneslərinin daha da rəqəmsallaşmasına səmərəli və effektiv şəkildə dəstək verə biləcəklər.



## Bakcell Bakıda yeni konsept mağazasını təqdim etdi

**Bakcell Bakı şəhərində, Nəriman Nərimanov metro stansiyasının yaxınlığında yeni konsept mağazasını istifadəyə verib.**

Müştərilərin rahatlığını təmin etmək məqsədilə yeni dükan özündə nömrə və aksessuar satışı ilə yanaşı müştəri xidməti funksiyasını birləşdirərək ən innovativ "hər şey bir arada" konsepsiyası əsasında qurulub.

Təbriz küçəsi 108 ünvanında yerləşən yeni Bakcell mağazasının açılmasında əsas məqsəd abunəçiyə daha yaxın olmaqdır. Yeni mağaza müştəri-yönümlü yanaşmadan istifadə edərək "Bakcell"in yenilənmiş brend qaydalarına uyğun olaraq dizayn edilib, bu isə ziyarətçilər üçün isti bir atmosferin yaradılması üçün imkan yaradıb.

Müştəri və satış məsləhətçisinin bir arada olması və interyerin sadə zona bölgüsü sayəsində müştərilər üçün bütün lazımi məlumatlar daha əlçatan olub, müştəri xidməti təmsilçiləri və dükan əməkdaşları ilə ünsiyyət isə daha da asanlaşıb. Yeni dükanda "Bakcell"in bütün məhsul və xidmətləri ilə yanaşı geniş çeşiddə telefon aksessuarları da təqdim edilir. Bundan əlavə, müştərilər burada Bakcell müştəri xidmətlərindən rahatlıqla istifadə edə bilərlər.

"Biz daim çalışırıq ki, "Bakcell"in məhsul və xidmətlərini həm Bakı ərazisində, həm də Azərbaycanın bütün bölgələrində yaşayan abunəçilərimiz üçün daha əlçatan edək. Bu fəaliyyətin davamı olaraq bu gün biz böyük məmnuniyyətlə Bakı şəhərinin mərkəzində yeni konsept mağazasını təqdim edirik. Burada bütün xidmət prosesi "hər şeyin mərkəzində müştəri dayanır" yanaşması üzərində qurulub. "Müştəri yönümlülük" adlanan bu standartı Azərbaycanda tətbiq etmiş ilk şirkətlərdən biri "Bakcell"dir. Planımız biznesimizi sistematik qaydada rəqəmsallaşmaya doğru aparmaqla müştərilərə daha çox rahatlıq verməkdir. Müştərilərlə ünsiyyət prosesinin daha rahat və effektiv olması üçün maksimal dərəcədə rəqəmsallaşmalıdır. Biz bunu öz "Mənim Bakcellim" mobil tətbiqini istifadəyə verməklə əyani şəkildə nümayiş etdirmişik", deyə Bakcell şirkətinin baş kommersiya direktoru Reinhard Zuba bildirib.

Qeyd edək ki, dükanın açılışı günündən bir həftə ərzində keçiriləcək xüsusi kampaniya çərçivəsində yeni Bakcell mağazasında əldə olunan bütün aksessuarlara 20% endirim təqdim edilir.

Yeni Bakcell mağazasının müştərilərini mobil rabitə xidmətlərinə aid bütün məsələlərlə kömək etməyə hazır olan xüsusi hazırlanmış əməkdaşlar qarşılayacaq.

Bakcell şirkəti özünün üstün müştəri təcrübəsi və ölkədə ən yüksək sürətli mobil şəbəkəni Azərbaycanın bütün bölgələrində yaşayan müştərilərinə daha yaxın etmək məqsədilə həm mobil rabitə şəbəkəsini, həm də müştəri xidməti və satış şəbəkələrini genişləndirməyə davam edəcək. Şirkət bu ilin sonunadək bir neçə yeni mağazanın açılışını planlaşdırıb.

Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd
Reportyorlar qrupu: Məlahət Rzayeva, Şeymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
Texniki heyət: Rüfət Dadaşov, İmamcan Əliyev
Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru
Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41 538-44-50, internet 538-44-15, İndeks: AZ1073
Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 232



## Azərbaycanda "Twitter" birincidir

**2021-ci ilin yanvarında Azərbaycanın sosial şəbəkə bazarında "Twitter" 25,17 faiz payla birinci yerdə qərarlaşıb. Trend bu barədə "Global Stats" statistika mərkəzinə istinadən məlumat verir.**

İkinci yerdə 20,27 faiz göstərici ilə "Facebook" olub. Bu şəbəkənin Azərbaycanda aktiv istifadəçilərinin sayı dekabrla müqayisədə 0,23 faiz azalıb.

"Instagram" sosial şəbəkəsinin istifadəçilərinin sayı 4,59 faiz artaraq 20,1 faiz təşkil edib.

"YouTube" istifadəçilərinin fəallığı bir ay ərzində 5,55 faiz artaraq 19,3 faizə bərabər olub.

"Pinterest"in payı 13,92 faiz, "VKontakte" sosial şəbəkəsinin payı 0,45 faiz təşkil edib.

## 22 yaşı var, gündə 75 min qazanır



**Məşhur "Bolşoy balesi" rəqs yarışmasının iştirakçısı 22 yaşlı Mariya Şuvalovanın ayda qazandığı pulun məbləği hər kəsi təəccübləndirib.**

Axşam.az bildirir ki, Rusiya prezidenti Vladimir Putinin ən yaxın dostunun balerina qızı ildə 20 milyon funt-sterlinq qazanır. Mariya gündə 75 min funt-sterlinq gəlir əldə edir. Onun Rusiyanın məşhur biznesmenlərindən daha çox qazandığı bildirilib. Onun çalışdığı teatrdan belə çox maaş aldığı müzakirələrə səbəb olub.

## Gəlin toya keçmiş sevgilisini çağırdı

Bəyin yanında onu qucaqladı



**Sosial şəbəkələrdə yayılan video maraq doğurub.**

Milli.Az haberler-ə istinadla bildirir ki, Tik Tok-da yayılan video maraqla qarşılanıb. Videoda gəlinin toyuna dəvət etdiyi keçmiş sevgilisini qonaqların və bəyin gözü qarşısında qucaqlaması əks olunub. O, keçmiş sevgilisini qucaqlamazdan əvvəl bəydən icazə alıb. Oğlan isə gəlini qucaqlamazdan əvvəl bəydən razılıq alıb. Qəribə olay Malaziyada yaşanıb.

## Koronavirus xəstələrini itlər iyləyəcək

### Fransa alimləri yeniliyə imza atıblar



**Koronavirusun təsbit edilməsi istiqamətində Fransa alimləri yeniliyə imza atıblar.**

Ölkənin Meyson-Alfort şəhərindəki baytarlıq laboratoriyasında aparılan testdə təlim keçmiş Alman itləri yeni növ koronavirus xəstələrini iyləməklə aşkarlaya bilirlər. İtlər yüzdə 95% müvəffəqiyyət göstəriblər. Bildirilir ki, fransızlar bundan sonra koronavirus infeksiyasına yoluxmanı müəyyən etmək üçün itlərdən istifadə edəcəklər. (publika.az)

İtlər tər vasitəsilə virusa yoluxmuş şəxsləri müəyyən edə bilirlər.



# Türkiyə ilkə imza atdı

## Sürücüsüz elektrik avtobusun ilk sərnişini Ərdoğan oldu




**Türkiyə Prezidenti Ərdoğan dünyanın ilk elektrikli və sürücüsüz avtobusun sınağını keçirib.**

"Şərq" Türkiyə mətbuatına istinadən xəbər verir ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nazirlər Kabineti toplantısında türk mühəndislər tərəfindən istehsal olunan dünyanın ilk kütləvi istehsalının 4. səviyyəli sürücüsüz elektrikli avtobusu ilə getdiklərini söyləyib. Prezident Ərdoğan bildirib ki, bu, Türkiyə üçün çox qürurvericidir: "Karsanı təbrik edirəm. Türkiyə adını kütləvi istehsal ilə dünyaya elan edəcək. Amerika iqlim dəyişikliyinə bir addım atarsa, biz də edəcəyik. Bu baxımdan heç vaxt geri qalmayacağıq. Bu yaxınlarda Elon Maskla görüşdüm. Bu məsələləri onlarla müzakirə etməyə hazırıq. Bu avtobusları tezliklə yollarda görəcəyik".

**Aynurə**






## Mask meymunlara çip yerləşdirdi

İndi onlar kompüter oyunları oynayır



**İlon Mask söz verib ki, təxminən bir ay sonra meymunların video oyun oynamasını əks etdirən video paylaşacaq.**

İlon Maskın "Neuralink" startapı meymunun beyninə uğurla neyroimplant yerləşdirib. Bundan sonra üzərində təcrübə aparılan heyvan kompüter oyunları oynamağı bacarıb. Sputnik Azərbaycan xəbər verir ki, bunu Bloomberg-ə milyarderin özü bildirib.

Milyarder qeyd edib ki, meymun öz ağlı ilə kompüter oyunları oynaya bilər. Maskın sözlərinə görə, meymun özünü yaxşı hiss edir və xoşbəxtdir.

İlon Mask deyib ki, yaradılan sistem bir neçə çip yerləşdirilmiş heyvanla işləməyə imkan verir. O söz verib ki, təxminən bir ay sonra meymunların video oyun oynamasını əks etdirən video paylaşacaq.

## "Qızımız olsun istəyirik"

### İkinci uşaqlarının adı indidən bəllidir



**Hazırda "Doğduğun ev kaderindir" serialında baş rolu canlandıran aktyor İbrahim Çelikkolun həyat yoldaşı Mihre Çelikkol şəxsi həyatları barədə danışıb.**

M.Çelikkol jurnalistin "İkinci uşaq dəftərini bağladınız" sualına belə cavab verib:

"Əksinə ikincini də düşünürük. Bir də qızımız olsun istəyirik. Adı belə indidən bəllidir".

*Qeyd edək ki, cütlüyün bir oğlu var.*